RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 169 (9048) CÜMƏ AXŞAMI, 11 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## KÖHNƏ BAYATILAR KÖMƏYƏ GƏLMİR

### İndi sülhyaratma prosesini İlham Əliyev idarə edir

İkinci Qarabağ müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin atdığı uğurlu addımlar, gördüyü işlər, yeritdiyi müdrik və uzaqgörən siyasət sayəsində erməni hiyləgərliyi ifşa olundu, erməni vəhşiliyi, barbarlığı bütün dünyaya tam çılpaqlığı ilə nümayiş etdirildi.

Azərbaycan dünyanın hər yerindən jurnalistləri, bloqçuları, siyasətçiləri, din adamlarını, beynəlxalq təşkilatların nümayəndələrini, tanınmış televiziya kanallarının, informasiya agentliklərinin müxbirlərini ölkəyə gətirərək ermənilərin Qarabağda törətdikləri vəhşilikləri hamıya göstərdi.

Azərbaycana gələnlər Qafqazın Xirosiması, ruhlar şəhəri Ağdamı, yerləyeksan olunmuş, soyularaq dağıdılmış, viran qoyulmuş külli Qarabağı gözləri ilə gördülər!

→ 2

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri avqustun 10-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Konya şəhərinin Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Konya valisi Vahdettin Özkan və digər rəsmi şəxslər yola saldılar.

## Sarsılmaz qardaşlıq nümunəsi

### Azərbaycanla Türkiyə arasındakı münasibətlər getdikcə daha yüksək mərhələyə qədəm qoyur, müttəfiqlik münasibətləri xüsusi xarakter daşıyır



Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu tarixi köklərə əsaslanır. Bu qardaşlığı, səmimi münasibətləri 44 günlük Vətən müharibəsində də gördük. Həmin müddətdə Türkiyə Azərbaycana mənəvi dəstəyini əsirgəməyərək, haqq səsimizin dünyaya çatdırılmasında sonadək yanımızda oldu.

Müharibədən sonra Azadlıq meydanında keçirilən təntənəli parad 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması qardaşlığın bariz təcəssümü idi. Bununla iki qardaş ölkə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəldi.

→ 3

## Azərbaycanla Əlcəzair uğurlu əməkdaşlıq həyata keçirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ramtan Lamamra Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelməcid Tebbunun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nazir bildirdi ki, Əlcəzair Prezidenti Azərbaycanda gedən inkişaf proseslərini və Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına çox uğurlu rəhbərliyini böyük maraqla izləyir.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Abdelməcid Tebbuna çatdırmağı xahiş etdi.



Dövlətimizin başçısı Əlcəzairin Qoşulmama Hərəkatı çərçivəsində ölkəmizin irəli sürdüyü təşəbbüslərə, eləcə də Azərbaycanın təşkilata sədrlik müddətinin uzadılması ilə bağlı qərara verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev OPEC+ formatında da Azərbaycanla Əlcəzairin uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Gələcəkdə əməkdaşlığın daha səmərəli və fəal şəkildə aparılması üçün bir çox sahələrin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi, ticarət, biznes və enerji sahələrində əlaqələri genişləndirməyin zəruriliyini bildirdi.

Prezident İlham Əliyev Ramtan Lamamranın ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qonaq bildirdi ki, gözəl, qardaş ölkə olan Azərbaycana səfərdən məmnundurlar və o, göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi. Öz növbəsində əlaqələrimizin genişlənəcəyinə əminliyini ifadə edən Ramtan Lamamra ölkələrimizin bir-birinə göstərdiyi dəstəyi vurğuladı, Azərbaycan ilə Əlcəzair arasında qarşılıqlı etimadın mövcudluğunu məmnunluqla qeyd etdi və bunun bir çox sahələrdə əməkdaşlığın möhkəmlənməsi üçün çox səmərəli nəticələr verə biləcəyini bildirdi.

## Müsəlman dövlətlərinin birliyi güclənir

Son illərdə müharibələrin, qarşıdurma və terrorizmin ən ağır zərbəsinin dəydiyi İslam dünyası ehtiyac duyulduğu sülh, tolerantlıq, həmrəylik və mərhəmət ruhu altında yenə bir araya gəlib. İslam dövlətlərini bir-birinə daha da yaxınlaşdıran, birləşdirən, mehribanlaşdıran V İslam Həmrəyliyi Oyunlarının start götürməsi əsl bayrama çevrilib.

Bu bir həqiqətdir ki, İslam dünyasını birləşdirən bu oyunların keçirilməsi antiislamçı qüvvələri hər zaman narahat edib. Çünki dünyada mövcud olan və dayanmadan fəaliyyət göstərən antiislamçı qüvvələr daim belə birliyin yaranmasına mane olmağa çalışır, məkrli planlar qurub "məharətlə" icra edir, İslam dünyasının yaxınlaşmasına, müxtəlif sahələrdə əməkdaşlığa başlamasına hər yolla mane olmağa çalışırlar. Düzdür, hərdən məqsədlərinə çatırlar da.

→ 3

## Təhlükəli viruslardan qorunmaq üçün qaydalara riayət olunmalıdır




Dünya koronavirus bəlasından qurtulmamış meymunçiçəyi virusu ilə üzləşdi. Hazırda meymunçiçəyi dünyanın müxtəlif ölkələrində yayılmaqdadır. Eyni zamanda COVID-19 da mutasiyaya uğrayaraq yeni simptomları meydana çıxmaqda və sürətlə yayılmaqda davam edir.

### Ehtiyatı əldən vermək yolverilməzdir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada koronavirusa yoluxma hallarının təsdiqlənmiş sayı 580 milyonu, bu xəstəlikdən ölənlərin sayı isə 6,41 milyonu ötüb.

→ 3

## Pambığı «ağ qızıl» edənlər



→ 5

## Bakıda "sauna", Budapeştdə "soyuq duş"

### "Qarabağ" Çempionlar Liqası təsnifat mərhələsində pley-offa yüksəldi

Ağdamın "Qarabağ" klubunun futbol üzrə Çempionlar Liqasının təsnifat mərhələsindəki uğurlu çıxışı hər kəsin ürəyini dağa döndərdi. Komandamız 3-cü təsnifatda Macarıstanın "Ferentsvaroş" klubunu mübarizədən kənarlaşdıraraq pley-offa yüksəldi.

Bir həftə öncə Bakıda Tofiq Bəhramov adına Respublika Stadionunda üçüncü təsnifat mərhələsinin ilk qarşılaşmasında Macarıstan çempionu ilə 1:1 hesablı heç-heçəyə razılaşan "Qarabağ" cavab oyununda 20 mindən çox tamaşaçının arenada izlədiyi matçda 3:1 hesabı ilə qalib gəldi.



→ 6

# KÖHNƏ BAYATILAR KÖMƏYƏ GƏLMİR

## İndi sülhyaratma prosesini İlham Əliyev idarə edir

Əsrlər boyu ermənilər qulluq göstərdikləri ağalarına sonda xəyanət ediblər!

Çünki xəyanətkarlıq bu millətin xislətindədir!

Əsrlər boyudur ermənilər "soyqırımı"na uğradıqlarını söyləyərək yalançı göz yaşları axıdıblar...

Amma arxivlərə girməyə qorxublar! Çünki bilirlər ki, arxivdəki sənədlər onların yalanlarını və saxtakarlıqlarını ifşa edəcəkdir!

Əsrlər boyudur ki, ermənilər havadarlarına, müdafiəçilərinə güvənərək Azərbaycan torpaqlarını ələ keçirməklə özlərinə dövlət yaradır, ərazilərini genişləndirirlər.

Bunun da bir sonu olmalı idi! Çünki Azərbaycan həmişə zəif, sahibsiz və müdafiəsiz qalmayacaqdı!

**Artıq qədim əyyam da, köhnə dövran da dəyişib!**

**Azərbaycan nə ordusuzdur, nə də müdafiəsiz!**

**Bu gün müstəqil Azərbaycana İlham Əliyev kimi mahir diplomat, uzaqgörən, qətiyyətli və prinsipial dövlət xadimi, qəhrəman sərkərdə rəhbərlik edir!**

*Amma göründüyü kimi, hər şey dəyişsə də, nə erməni, nə onun havadarları, nə də bu xalqın xisləti dəyişib!*

*Yenə öz ampluasındadır...*

**Ancaq daha əməlləri keçmişdəki kimi işləmir, hiylələri keçmir, niyyətləri baş tutmur!**

**Necə deyərlər, daş qayaya rast gəlib!**

❖ ❖ ❖

*Ermənilər həmişə özlərini fağır göstəriblər...*

*Məzlum göstəriblər...*

*Zavallı göstəriblər...*

*Lakin bu fağırlığın, məzlumluğun, zavallılığın arxasında daima bir hiylə də dayanıb!*

*Erməni hiyləgərliyi!*

Bu hiyləgərliyi gündəlik siyasətə isə erməni diasporu çevirib!

"Böyük Ermənistan" yaratmaq üçün daima bütün ermənilərdən pul yığan, illər boyu ianələr hesabına böyük vəsait toplayan erməni diasporu!

Diaspor yığılan pullardan özü də çox yaxşı bəhrələnib!

Əvvəlcə toplanan məbləğdən öz payını götürüb!

Sonra diasporun mövcud olduğu (xüsusən güclü olduğu) ölkələrdə həmin puldan yerli siyasətçiləri, senat, konqres və dumadakı deputatları, Avropa İttifaqı və Avropa Şurası Parlament Assambleyasındakı deputatları, yüksək çinli məmurları ələ almaq üçün yüksək məbləğ ayırıb.

Yerdə qalan qismi Ermənistana göndərilib.

Ermənistana gələn məbləğdən isə bu ideyaya (Böyük Ermənistan ideyasına) xidmət edənlər əvvəlcə öz paylarını götürmüş, sonra isə avam xalqın baş verən yeyintilərindən xəbər tutmaması üçün xırda-para tədbirlərlə oğurluqlarını pərdələmişlər.

Məhz bu hesaba Ermənistanın keçmiş prezidentləri Koçaryan, Sərkisyan, indi isə qondarma "dqr"in "prezidenti" Arutunyan milyarder olublar.

Halbuki "prezident" olana qədər acından köpük qusurdular!

**Erməni xalqına çatan real pay isə yoxsulluq, dilənçi həyatı yaşamaq, işğalçı müharibədə öldürülən oğullarının tabutları olub!**

**Bu mexanizm hələ də işləyir!**

Birinci Qarabağ müharibəsində toplama-mənimsəmə mexanizmi yüksək effekt vermişdi!

Göz yaşı tökən "zavallı millət" əvvəlcə sovet xalqını keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayanların "ağır iqtisadi durumda" olduqlarına inandırmışdı...

Sonra dünyanın hər yerinə Azərbaycanda yaşayan ermənilərin hüquqlarının pozulduğu, sıxışdırıldıqları barədə rəvayətlər yaymışdı.

Naxçıvanda dəmir yolunun bağlanması, Ermənistanın blokadaya salınması haqqında nağıla isə ABŞ konqresində güclü reaksiya verildi!




Naxçıvandan xəbərsiz, Azərbaycanın özünü yox, hətta xəritəsini belə görməyənlər, dəmir yolunun əvvəlcə Ermənistan ərazisindən keçdiyini, sonra Naxçıvana çatdığını bilməyənlər Azadlığı Müdafiə Aktına 907-ci düzəlişi qəbul etdilər!

Beləliklə, ABŞ-ın Azərbaycana birbaşa yardımına veto qoyulmuş oldu.

Sumqayıt hadisələrini SSRİ DTK-sının köməyi və əli ilə təşkil edənlər hadisədən bir neçə saat sonra bütün dünyaya Azərbaycandakı ermənilərə divan tutulduğu barədə şəkillər, videoçəkilişlər və informasiyalar yaydılar.

Bunları çəkən "operator"ların, hadisələrin baş vermə anında foto və video müxbirlərin Sumqayıtda haradan, necə peyda olduğunu kimsə soruşmadı...

Hətta hadisələrin önündə gedən erməni Qriqoryanın məhkəmədə sübut olunmuş qəddarlıq cinayətləri, onun uzunmüddətli həbs cəzasına məhkum olunduqdan sonra türmədən necə və nə səbəblə azad edilərək Moskva vilayətində rahat ömür sürməsi də kimsədə şübhə yaratmadı.

**Çünki bu hadisələri törədənlərin üzündə məzlumluq, fağırlıq, zavallılıq maskası vardı!**

**Arxada isə erməni diasporunun pulları və satılmışların dəstəyi həlledici rol oynayırdı.**

Ötən əsrin 90-cı illərinin əvvəllərində, SSRİ-nin dağılan, ermənipərəst Qorbaçovun super dövlətin rəhbəri olduğu vaxtlarda Azərbaycan dövləti erməni məkrinə üstün gəlmək gücündə deyildi!

*Çünki həmin dövrdə ölkə rəhbərliyinin kürsüsündə Moskvaya mütilik göstərənlər oturmuşdular!*

*Meydan hərəkatının dalğaları üzərində iqtidara gələn AXC - Müsavat cütlüyünün başbilənləri isə dövlət idarəçiliyində naşı, siyasətdən bixəbər adamlar idi.*

Onlar səriştəsiz, köntöy, yekəxana əməlləri ilə, əslində, ermənilərin dəyirmanına su tökürdülər:

- gah Azərbaycanda olan "atom bombası"ndan istifadə edəcəkləri;
- gah Yakutiyaya bayraq sancacaqları;
- gah da Rusiyanın Azərbaycandakı səfirinin başına "güllə çaxacaqlarını" bəyan edirdilər.

*Əslində, dövlət rəsmilərinin gülüş doğuran belə açıqlamaları təkcə Azərbaycan haqqında mənfi fikirlər formalaşdırmır, üstəlik, ermənilərin Qarabağda törətdikləri vəhşilikləri, soyqırımlarını pərdələmələrinə, həm də bizim "vəhşi", "qaniçən" olmağımız barədə erməni şayiələrinin möhkəmlənməsinə xidmət edirdi!*

❖ ❖ ❖

**İkinci Qarabağ müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin atdığı uğurlu addımlar, gördüyü işlər, yeritdiyi müdrik və uzaqgörən siyasət sayəsində erməni hiyləgərliyi ifşa olundu, erməni vəhşiliyi, barbarlığı bütün dünyaya tam çılpaqlığı ilə nümayiş etdirildi.**

Azərbaycan dünyanın hər yerindən jurnalistləri, bloqçuları, siyasətçiləri, din adamlarını, beynəlxalq təşkilatların nümayəndələrini, tanınmış televiziya kanallarının, informasiya agentliklərinin müxbirlərini ölkəyə gətirərək ermənilərin Qarabağda törətdikləri vəhşilikləri hamıya göstərdi.

Azərbaycana gələnlər Qafqazın Xirosiması, ruhlar şəhəri Ağdamı, yerləyeksan olunmuş, soyularaq dağıdılmış, viran qoyulmuş küllü Qarabağı gözləri ilə gördülər!

İnsanlar gördüklərinə, şahidi olduqlarına daha çox inanırlar və heç zaman unutmurlar!

Dünyanın hər yerindən gələnlər Qarabağda daş üstə daş qalmadığının, meşələrin, bağların qırılaraq məhv edildiyinin, qəbiristanlıqların dağıdıldıqlarının, məscidlərin uçurulduğunun və içərisində donuz, inək saxlanıldığının şahidi oldular!

Həm də "məzlum", "fağır", "zavallı" ermənilərin əsl simalarından, hansı vəhşilikləri törətmək "qabiliyyətlərindən" şəxsən xəbər tutdular.

Necə deyərlər, kor olmuş dünyanın gözləri açıldı!

**Bütün bunları Prezident İlham Əliyev etdi!**

**Əvvəlcə, 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm zəfər ilə!**

**Çünki bu qələbə olmasaydı, adamları Qarabağa aparmaq, dağıntı və vandallığı onlara göstərmək mümkün olmazdı!**

**Sonra isə erməni riyakarlığını, erməni həyasızlığını, erməni hiyləgərliyini addımbaşı konkret faktlar və hadisələr əsasında ifşa etməklə!**

**Ən əsası isə "dəmir yumruğ"u ilə əsl həqiqətləri meydana çıxarıb faş etməklə!**

❖ ❖ ❖

Erməni fitnəsi, erməni hiyləsi, erməni həyasızlığı bu gün də davam edir!

Mahiyyətində isə revanşist niyyətlər, 10 noyabr 2020-ci il, 11 fevral 2021-ci il və 26 oktyabr 2021-ci il bəyanatlarında, təslimçilik aktında üzərlərinə götürdükləri öhdəliklərə əməl etməmək niyyəti durur!

*Erməni həmişə kimə xidmət edibsə, nökərçilik göstəribsə, sonda onu keçi qiymətinə satıb!*

*Bu xalq üçün müqəddəs heç nə yoxdur!*

*Hətta ibadət etdikləri kilsələr də özlərininki deyil, oğurluqdur!*

*Xeyir gördüklərinin, fayda gördüklərinin daim kölgəsinə çevriliblər.*

*Quyruqları qapı arasında qalanda, ağaları daha onlara sərf etməyəndə isə başqa ağa axtarıblar!*

Bu gün Paşinyan gah Moskvaya yaltaqlanır, gah da Kremlin dalınca danışır, Rusiyanı etibarsızlıqda ittiham edir!

Gah da Qərbə yarınır, hərdən ATƏT-in Minsk qrupunun xortlamasından bəhs edir, qərbin üzünə gülərək onun vasitəsilə istəyinə çatmağa çalışır.

*Özündən olsa, hiyləgər açıqlamalar, bir-birinə zidd bəyanatlar verməklə kapitulyasiya aktında üzərinə götürdüyü öhdəliklərdən qaçmağa çalışır!*

*Amma xeyri yoxdur!*

*Nə ona inanan var, nə də onu ciddi siyasətçi, sabit mövqeyi olan dövlət başçısı kimi tanıyan!*

Azərbaycan da ötən əsrin 90-cı illərindəki dövlət deyil!

**İlham Əliyev müstəqil Azərbaycanı iqtisadi cəhətdən gücləndirmiş, siyasi nüfuzunu ən yüksək səviyyəyə qaldırmış, beynəlxalq təşkilatlarda sözü eşidilən, mövqeyi müdafiə olunan dövlətə çevirmiş, qüdrətli ordu yaratmış, Azərbaycan xalqını qalib xalq, məğrur millət etmişdir!**

**Azərbaycanın rəhbəri dünyada sözü ilə işi, imzası ilə əməli bir olan prinsipial, qətiyyətli dövlət xadimi kimi tanınır!**

**Hamı bilir ki, İlham Əliyev dedisə, edəcəkdir!**

Baxın, Ermənistan Zəngəzur dəhlizini dəbbələyir, yeni Laçın yolunun özünə aid hissəsini çəkməyərək Laçın rayonunu boşaltmaq istəmir, vaxtaşırı atəşkəsi pozmaqla "münaqişənin bitmədiyi" rəyini yaratmağa çalışır, statusdan, "Qarabağın özünümüdafiə qoşunu"ndan danışır.

**İlham Əliyev bir neçə dəfə xəbərdarlıq etdi!**

**Nəticəsi olmadı! Əksinə, düşmən ordumuzun gənc əsgərini qətlə yetirdi!**

**Müzəffər Ali Baş Komandanımızın "Qisas" əməliyyatı özünü çox gözlətmədi!**

**Komandolarımızın və "Bayraqdar"ın birgə əməliyyatı yüksək nəticələrə səbəb oldu:**

- Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər ordumuz tərəfindən nəzarətə götürüldü!
- Buzdux dağı və ətrafındakı yüksəkliklər nəzarətimiz altına alındı. Bunun sayəsində ordumuz Ağdaban, Suqovuşan, Sərsəng su anbarları və Vəng istiqamətində atəş və müşahidə imkanlarını kifayət qədər genişləndirmiş oldu. Həm də ordumuzun Murovdağ istiqamətinə çıxışı təmin olundu!
- Bütövlükdə 3 avqust 2022-ci ildə keçirilən "Qisas" əməliyyatı sayəsində 164,5 kvadrat-kilometr əraziyə nəzarəti təmin etdik!

*İndi isə növbədə Zəngəzurdur!*

*Qədim Azərbaycan torpağı olan Zəngəzur!*

*Əgər Paşinyan sayıqladığı kimi hərəkət edərək Zəngəzur dəhlizini açmasa, onda daim hazır vəziyyətdə olan "dəmir yumruq" öz sözünü deyəcəkdir!*

Buna həm hüququmuz çatır, həm də qüdrətimiz!

❖ ❖ ❖

**Bu gün dünya erməni hiyləgərliyindən, ermənilərin göz yaşlarından, ah-zarından bezib!**

**Paşinyan nə qədər atılıb-düşsə də, sonda İlham Əliyevin dediklərini edəcəkdir!**

**Çünki başqa çarəsi yoxdur!**

**Çünki buna məhkumdur!**

Həm də əyani şəkildə görür ki, "dəmir yumruq" hazır vəziyyətdə dayanıb gözləyir!

İstənilən an düşmənin başını əzərək, istədiyimizə nail oluruq!

Artıq ermənilər və onların havadarları hər bir təxribat-terror əməlinə artıqlaması ilə cavab verildiyini gözəl anlayırlar!

*Laçından da rədd olmalarına sayılı günlər qalıb!*

*Yaxşı bilirlər ki, Zəngəzur dəhlizini istifadəyə verməsələr, Laçın dəhlizi bağlanacaq!*

*Heç kəsə, heç nəyə arxayın olmasınlar!*

*Xüsusən hiyləyə və göz yaşlarına bel bağlamasınlar!*

**Bu gün köhnə havalar köməyə gəlmir!**

**Çünki Qarabağda və Şərqi Zəngəzurda sülhyaratma prosesini İlham Əliyev idarə edir!**

**Bəxtiyar SADIQOV**

# Sarsılmaz qardaşlıq nümunəsi

**Azərbaycanla Türkiyə arasındakı münasibətlər getdikcə daha yüksək mərhələyə qədəm qoyur, müttəfiqlik münasibətləri xüsusi xarakter daşıyır**

*Əvvəli 1-ci səh.*

## "Azərbaycan bizim dostumuz, can qardaşımızdır"

Bu gün elə bir sahə yoxdur ki, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq, sıx əlaqələr olmasın. Ölkə prezidentlərinin də tez-tez qarşılıqlı səfərləri, mühüm beynəlxalq tədbirlərdə birgə iştirakı əsl qardaşlıq nümunəsidir.

Avqustun 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə səfər çərçivəsində Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak etdilər. Dövlət başçıları arasında görüş də keçirildi. Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Türkiyə Prezidenti Qarabağdakı son hadisələrlə əlaqədar bir daha qardaş ölkənin dəstəyini ifadə edərək şəhidlərlə bağlı başsağlığı verdi. Görüşdə bölgədə postmünaqişə dövrü ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi, enerji, nəqliyyat və hərbi sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, Azərbaycan və Türkiyə arasındakı münasibətlərin qardaşlığa, dostluğa dayandığını yalnız dövlət başçıları səviyyəsində deyil, digər rəsmi şəxslərin nümunəsində də görmək mümkündür. Hər kəsin nitqində "Bir millət, iki dövlət" ifadəsi daim eşidilməkdədir.

Avqustun 9-da Ankarada "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda keçirilən XIII Səfirlər Konfransında çıxış edən Türkiyənin milli müdafiə naziri Hulusi Akar hər zamankı kimi iki dövlətin dostluq münasibətlərinə toxunub. "Azərbaycan bizim dostumuz, can qardaşımızdır", - deyən nazir ölkəmizin torpaqlarını işğaldan azad etmək üçün 30 ilə yaxın danışıqlar apardığını xatırladaraq, müharibədən əvvəl Azərbaycan ərazisinin 20 faizinin işğal altında və çox sayda məcburi köçkünün olduğunu bildirib: "Lakin bütün bunlara baxmayaraq, dünya bu hadisəyə biganə yanaşdı. Azərbaycanlı qardaşlarımız sonda "Yetər artıq!" deyərək əməliyyata başladılar. Şükürlər olsun ki, 44 gün davam edən müharibə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi", - deyə Hulusi Akar qeyd edib.

Hazırda Cənubi Qafqazda bərpa edilən sülhün Ermənistan üçün də bir fürsət olduğunu vurğulayan nazir həmçinin Şuşa Bəyannaməsinin əhəmiyyətindən danışdı.

Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan-Türkiyə münasibətləri, müttəfiqliyi dünyada bərabəri olmayan dostluq və qardaşlığın ən gözəl nümunəsidir. Dövlət başçısı Türkiyənin, Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dəstəyini məmnunluqla ifadə edərək bildirir: "Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı hər zaman ortaya qoyduğunuz qəti və birmənalı mövqe, haqq işimizə verdiyiniz tərəddüdsüz dəstək bizi daim ruhlandırır və əlavə güc verirdi. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin ilk saatlarından son dəqiqələrinə qədər şəxsən Sizin, Türkiyə Respublikasının, qardaş xalqınızın nümayiş etdirdiyi mənəvi dəstəyi, həmrəyliyi heç zaman unutmayacaq. Bu gün də işğaldan azad edilmiş torpaqların əsaslı yenidən qurulması və bərpası işlərində Türkiyə ilə çiyin-çiyinə bir yerdə irəliləməyimiz böyük məmnunluq doğurur. Biz də öz növbəmizdə hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olmağa davam edəcəyik".

İki dövlət başçısı arasındakı səmimi münasibətlər bir daha göstərir ki, Azərbaycanla Türkiyənin münasibətləri getdikcə daha yüksək mərhələyə qədəm qoyur, birlikdə daha gözəl işlər görülür və görüləcək, eyni zamanda bütün çətin anlarda bir-birinin yanında olacaq, dəstəklərini əsirgəməyəcəklər.

## "Dost da, düşmən də bilsin ki, Can Azərbaycan heç zaman yalnız deyil!"

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu XIII Səfirlər Konfransının rəsmi açılışındakı giriş nitqində Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamını xatırladaraq deyib ki, müttəfiqlik münasibətlərimiz və qardaşlıq əlaqələrimiz xüsusi xarakter daşıyır. Dünyada bunun bənzəri yoxdur. Nazir qeyd edib ki, tarixin çətin dövrləri bir millət olan Azərbaycan və Türkiyə xalqlarını bir-birinə daha da yaxınlaşdırıb. Bir əsr əvvəl Azərbaycan türkləri milli mübarizəmizə dəstək üçün əlində, ovcunda nə var idisə qardaş köməyi deyərək Türkiyəyə göndərdi. Yəni qardaşlarımız Qurtuluş savaşımızda bizləri tək qoymadılar. Qardaş köməyini 2020-ci ildə də gördük. Can Azərbaycanın Qarabağı işğaldan azad etməsinin şahidi olduq. Bu dəfə bütün Türkiyə xalqı Can Azərbaycanın yanında oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi ilə əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyini diqqətə çatdıran Mövlud Çavuşoğlu deyib ki, müttəfiqlik, sadəcə, könüldə olmaz, bunu gerçəkləşdirən amillər var: "Bu birliyə vəsilə olan ən mühüm səbəb Can Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi, yəni Qarabağ Zəfəri oldu. Qarabağ Zəfəri ilə türk dünyasının özünə olan güvəni daha da artdı".

XİN rəhbəri Şuşa Bəyannaməsindən sonra İstanbulda keçirilən Zirvə görüşü zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olduğunu xatırladıb və bildirib ki, bundan sonra təşkilata rəhbərlik Azərbaycandan Türkiyəyə keçib. Pandemiyanın çətinliklərinə və Vətən müharibəsindən irəli gələn son dərəcə ağır şərtlərə baxmayaraq, qardaş ölkə təşkilatımıza uğurla sədrlik etdi. İkitərəfli əməkdaşlıqlarımızla yanaşı, bölgənin sülh və sabitliyi üçün də işləyirik, ideyalar irəli sürürük. Məlum olduğu kimi, üçtərəfli-dördtərəfli formatlarda mexanizmlərimiz var. Bunlar Türkiyə ilə Azərbaycanın mərkəzdə olduğu mexanizmlərdir.

Bölgədə yaranmış yeni vəziyyətdən danışan nazir vurğulayıb ki, Türkiyə və Azərbaycan sabitlik və sülh üçün səmimidir. Bu normallaşma Ermənistanın da xeyrinədir. Sadəcə, xoş sözlərlə olmaz, konkret addımlar atmalı və anlaşmalar həyata keçirilməlidir. Azərbaycan da hər zaman Türkiyənin yanındadır. Azərbaycan xüsusilə Türkiyənin olmadığı platformalarda ölkəmizin haqlarını hər zaman ən azı bizim qədər müdafiə edir. Həqiqətən, çətin dövrdən keçdik, sözün əsl mənasında, alovdan köynək geyindik. Bu dövrdə Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan tarix kitablarına salınacaq çox vacib uğurlara imza atdı.

Azərbaycana dəstəyini ifadə edən çıxışı ilə diqqət çəkən nazir bir daha vurğulayıb: "Dost da, düşmən də bilsin ki, Can Azərbaycan heç zaman yalnız deyil!"

## Azərbaycan-Türkiyə qardaşlığı gələcək nəsillərə miras olaraq qalacaq

Həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə və Azərbaycan münasibətləri inkişaf etməkdə davam edir. Türkiyə Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpa və yenidənqurma işlərinə hər zaman lazımi dəstəyi göstərməyə hazır olduğunu bildirir.

Tarixə söykənən səmimi münasibətlər illər keçdikcə daha da dərinləşir, iki dövlət arasında ayrılmaz bağlar yaranır. Bu müttəfiqlik digər ölkələrə nümunə olmaqla yanaşı, gələcək nəsillər üçün qardaşlıq və dostluğun simvoludur.

Prezident İlham Əliyevin də dediyi kimi, bu günün reallığı və xalqlarımızın qürur mənbəyi olan nümunəvi Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillərə strateji yol xəritəsi, əbədi və sarsılmaz miras olaraq qalacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Müsəlman dövlətlərinin birliyi güclənir

**Türkiyədə keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində dünyaya həm də qardaşlıq mesajı verildi**

*Əvvəli 1-ci səh.*

Amma buna baxmayaraq, İslam dövlətləri həmrəylik oyunları ətrafında birləşərək həmin qüvvələrə gözdağı verirlər. Bu birliklə İslam dövlətləri dünyaya bir daha həmrəy ola bildiklərini sübut edirlər. Elə Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının keçirilməsi də bu prosesin tərkib hissəsidir desək, yanılmarıq.

## İslam dünyası bir-biri ilə "Könüllər şəhəri"ndə qovuşdu

Həqiqətən də, İslam Həmrəyliyi Oyunları tək müsəlman ölkələrinin idman bayramı deyil. Bunun ən yaxşı izahını Azərbaycan Prezidenti verib. İlham Əliyev "İslam Həmrəyliyi Oyunları sırf idman tədbiridirmi?" sualına münasibətini aydın və dəqiq şəkildə belə ifadə edib: "Əgər kimsə hesab edir ki, İslam Həmrəyliyi Oyunları idman tədbiridir, səhv edir. Bu, böyük siyasi tədbirdir, bu, böyük mədəni tədbirdir, bu, böyük ictimai hadisədir. Bu, bir daha Azərbaycanı müstəqil, öz dəyərlərinə, İslam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda müasir ölkə kimi göstərir və bu gün İslama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq".

Avqustun 9-da idmanın birləşdirici gücü ilə həmrəyliyi inkişaf etdirməyi qarşısına məqsəd qoyan V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi, liderlərin səmimi görüşləri də bir daha dünyaya İslam dövlətlərinin birliyini nümayiş etdirdi. Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etdiyi mərasimdə maraqlı anlar yaşandı.

Oyunların məhz Konyada keçirilməsi isə təsadüfi deyildi. Qədim tarixi olan Konya şəhəri həm də İslam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir.

Əsas qayəsi Cəlaləddin Ruminin "Biz birləşdirməyə gəldik, ayırmağa gəlmədik" olan açılış mərasimi maraqlı kompozisiyaların təqdimatı ilə keçdi. "Salam olsun!" kompozisiyası ilə Türkiyədən bütün İslam dünyasına salam göndərildi. "Həmrəyliyin gücü" kompozisiyasının əsas qayəsi isə odur ki, İslam dünyası bir-biri ilə qovuşur, birlik olur. Dünya müsəlmanları həmrəyliyin gücü ilə birləşir. Bu, İslam dünyasının dəyərlər düşüncəsi ilə birləşməsinin və həmrəyliyinin göstəricisidir. "Elmin gücü" kompozisiyasında İslam dünyasının qızıl dövrü tərənnüm edilir. Bu hissədə dünya qaranlıq dövrünü yaşadığı bir zamanda İslam alimlərinin bütün insanlığa bu günümüzə qədər gəlib çatan bəşəri irs qoymaları təbliğ olunur. "Hikmətin gücü" kompozisiyasında böyük bir mədəniyyətin paytaxtı, elmin və hikmətin diyarı, könüllərin görüş yeri olan Konyanın miras qalan əsərləri təqdim olunur, bu qədim şəhərin tarixinə səyahət edilir. "Könüllər şəhəri: Konya" kompozisiyasında isə İslam aləminin müdriklərinin uzun illər elm və hikmət axtarışlarından sonra Konyaya üz tutmaları və bu şəhərdə İslam mədəniyyətinin ən nadir incilərini yaratdıqları tərənnüm olunur. "Eşqin gücü" kompozisiyasında bu gözəl diyarda kök salan hikmətli düşüncələrin öz bəhrəsini verdiyi, bu hikmətin və sevginin Konyanı "Könüllər şəhəri"nə çevirdiyi təbliğ edilir.

Açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə verilən şam yeməyi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, dünyada gərginliklərin, iqtisadi çətinliklərin yaşandığı, müsəlmanlara qarşı bütün sahələrdə ayrı-seçkiliyin ciddi narahatlıq doğurduğu zamanda Konyadan bütün dünyaya ötürülən qardaşlıq mesajının bu ayrı-seçkiliyin qarşısının alınmasına töhfə verəcəyini bildirdi.

Türkiyə Prezident 2017-ci ildə Azərbaycanda keçirilən IV İslam Həmrəyliyi Oyunlarına da toxunaraq maraqlı fikir səsləndirdi: "İslam Həmrəyliyi Oyunlarının sonuncusunu əziz qardaşım İlham Əliyevin və hörmətli birinci xanım Mehriban Əliyevanın evsahibliyi ilə 2017-ci ildə Azərbaycanda keçirmişdik. Azərbaycanlı qardaşlarım hər baxımdan uğurlu evsahibliyinə imza atmışdır".

Rəcəb Tayyib Ərdoğan pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılmasından sonra V İslamiadanın keçirilməsindən məmnunluğunu ifadə etdi, oyunlara marağın böyük olduğunu da vurğuladı.

## İslam Həmrəyliyi Oyunlarına Azərbaycan töhfəsi

İslam Həmrəyliyi Oyunları ilk dəfə Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilib. İranın paytaxtı Tehranda keçirilməli olan ikinci İslamiada ləğv edilib. Üçüncü oyunlar 2013-cü ildə İndoneziyanın Palembanq şəhərində, IV isə 2017-ci ildə Azərbaycanda təşkil olunub.

IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi bu möhtəşəm idman tədbirinə yeni nəfəs verdi. Prezident İlham Əliyev 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi ili" elan etmişdi. Bu da əlbəttə ki, İslam dövlətləri tərəfindən razılıqla qarşılanmış və geniş əks-səda doğurmuşdu.

2017-ci il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident və oyunların Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün dünyaya nümayiş etdirdi ki, İslam aləmi bir ola bilir və bu birlik gücümüzü daha da artırır.

"Bakı-2017"də 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə apardı. Bu oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı.

Azərbaycan İslam dünyasını birləşdirmək, ona qarşı yönəlmiş qəsdləri zərərsizləşdirmək və bütövlükdə özünü dünyaya sülh, əmin-amanlıq carçısı olan ölkə kimi təqdim etmək imkanlarını bir daha ortaya qoydu.

Üzərinə götürdüyü daha bir ali missiyanı adına layiq uğurla yekunlaşdıran ölkəmiz həm də dünyaya sülh mesajı verdi. Odlar Yurdu bu oyunlarla bir çox ilklərə imza atdı. Azərbaycan həm I Avropa Oyunlarına, həm də İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edən yeganə İslam dövləti oldu. 2015-ci ildə I Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazan Azərbaycan bu dəfə dörd qitənin İslam ölkələrinin insanlarını Bakıda birləşdirdi. Azərbaycan həm də İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrildiyini bir daha təsdiqlədi.

Birinci vitse-prezident, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın söylədiyi kimi, İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifə açdı və beynəlxalq idman ictimaiyyəti üçün növbəti unudulmaz hadisə kimi tarixə qızıl hərflərlə yazıldı.

Beynəlxalq tədbirlərin, yarışların keçirildiyi məkana çevrilən paytaxtımız Bakıda İslam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələr yaratmaq üçün hər cür şərait yaradıldı. Bakının 16 idman arenası ötən on gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu.

Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə heyəti gəldi. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması müşahidə olunmamışdı. Elə İslam Həmrəyliyi İdman Federasiyasının rəhbərliyi də bu oyunları təşkilati baxımdan ən uğurlu İslamiada adlandırdı.

Bütün bu fikirlərə əsaslanaraq əminliklə söyləyə bilərik ki, qazandığımız bu zəfər İslam dünyasında həmrəyliyə və birliyə nail olmağa yönəlmiş siyasət yürüdən İlham Əliyevin yüksək təşkilatçılıq və liderlik qabiliyyətinin təntənəsi oldu.

## İdmançıların ən böyük hamisi

Hər zaman yarışlardan öncə idmançılarımızla görüşərək onları daha da ruhlandıran, stimul verən İlham Əliyev bu siyasətinə sadiq qalaraq Konyada atletlərimizlə görüşüb onlara öz dəstəyini nümayiş etdirdi.

Avqustun 9-da Türkiyəyə işgüzar səfəri çərçivəsində İlham Əliyev ölkəmizi təmsil edən idmançılarla görüş zamanı səsləndirdiyi fikirlərlə onları qələbələrə köklədi. Bunun bir ənənə olduğunu xatırladan dövlət başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan atletləri ölkəmizi ləyaqətlə təmsil edəcəklər. Çünki atletlərimiz artıq bütün beynəlxalq yarışlarda öz güclərini təsdiqləyiblər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azarkeşlər də bir növ buna öyrəşiblər: "Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər... Bu dəfə bu oyunlar Bakıdan sonra Konyada keçirilir, qardaş ölkədə keçirilir. Əminəm ki, siz özünüzü burada evinizdəki kimi hiss edirsiniz. Əlbəttə ki, bu oyunların Türkiyədə keçirilməsi bizim üçün əlavə imkanlar yaradır. Əlbəttə, biz çox şadıq ki, bu oyunlar qardaş Türkiyədə keçirilir. Əminəm ki, bu oyunlar həm idman bayramı, həm də İslam həmrəyliyi bayramı kimi yadda qalacaq".

Prezident bir daha 5 il əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarına toxunaraq vurğuladı ki, paytaxtımızdakı oyunlar İslam həmrəyliyinin güclənməsinə təkan verib. Çünki bu oyunlar həm idman yarışı, həm də müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir.

Prezident İkinci Qarabağ müharibəsinin qalib ölkəsinin idmançılarına stimul verərək deyib ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir. Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu oyunlarda iştirak edirik. Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək.

Əlbəttə ki, dövlət başçısının bu qürur dolu fikirləri Azərbaycan atletlərini qələbələrə ruhlandırır. İnanırıq ki, idmançılarımız Vətənə yüksək uğurlarla qayıdacaqlar.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Təhlükəli viruslardan qorunmaq üçün qaydalara riayət olunmalıdır

*Əvvəli 1-ci səh.*

Təşkilatın statistikası yalnız dövlətlər tərəfindən verilən yoluxmuş və ölənlər haqqında rəsmi təsdiqlənmiş məlumatlara əsaslanır. Yoluxma sayında 500 milyonluq hədd aprelin 14-də, 400 milyonluq hədd - fevralın 10-da, 300 milyonluq hədd yanvarın 8-də, 200 milyonluq hədd isə keçən il avqustun 5-də qeydə alınıb.

İndiyədək Ümumdünya Səhiyyə Təşkilatına daxil olan ən çox təsdiqlənmiş yoluxma halının qeydə alındığı ölkə ABŞ-dır. Sonrakı sıralarda Hindistan, Braziliya, Fransa və Almaniya yer alıb. Koronavirus səbəbindən ən çox ölüm halının qeydə alındığı ölkə də ABŞ-dır, Braziliya ikinci, Hindistan üçüncü sıradadır. Daha sonra Rusiya və Meksika yer alıb.

Ölkəmizdə isə indiyədək COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 9 min 768 nəfəri vəfat edib. Statistik göstəricilər son günlər respublikamızda da koronavirusun fəallaşdığını deməyə əsas verir. Belə ki, bu təhlükəli infeksiyaya gündəlik yoluxanların sayı 500 nəfəri ötüb. Vəziyyətin bu həddə çatması təəssüf doğurmaqla yanaşı, onu da göstərir ki, əhali ehtiyatı əldən verməməlidir. Koronavirusu görməməzlikdən gəlmək yolverilməzdir.

Bu qorxulu virusla mübarizə aparan dünya indi də "Omikron" ştamının altvariantları BA.4 və BA.5 üçün həyəcan təbili çalır. Almaniyada fəaliyyət göstərən türkiyəli professorlar Özlem Türeci və Uğur Şahinin qurucusu olduqları "BioNTech" şirkəti yeni variantlara qarşı növbəti peyvəndlərin anonsunu verib. Peyvəndin "Omikron"un BA.4 və BA.5 kimi yeni variantlarına qarşı hazırlandığı açıqlanıb.

Şirkət "uzunmüddətli və əhatəli qorunma" təmin etmək üçün hazırlanmış koronavirus peyvəndinin indiki versiyasının klinik sınaqlarına başlayacağını açıqlayıb. Testlərin bu ay başlaması nəzərdə tutulub.

## Meymunçiçəyi uzaq adaya da çatıb

Artıq bu virusun uzaq adaya - Qrenlandiyaya da çatdığı barədə xəbərlər yayılıb. Belə ki, Qrenlandiyada meymunçiçəyinə ilk yoluxma halları qeydə alınıb.

Məlumata görə, xəstələr "Thule" Hərbi Hava Qüvvələri Bazasının iki əməkdaşıdır. Yoluxanlardan biri Qrenlandiyaya bu yaxınlarda gəlib və heç bir əlamət büruzə verməyib. Hazırda hər iki xəstə başqalarının sağlamlığı üçün təhlükə yaratmayana qədər təcrid edilib.

Mütəxəssislər hələlik infeksiyanın adanın başqa ərazilərinə keçməsi təhlükəsinin olmadığını bildiriblər.

Almaniyada isə PCR testi götürülən 4 yaşlı qızda meymunçiçəyi virusu aşkarlanıb. Xəstəliyə yoluxanlar arasında ilk dəfədir ki, azyaşlıya rast gəlinir. Virusa yoluxan azyaşlının ailə üzvlərindən başqa heç kimlə təmasda olmadığı barədə məlumat verilib. Qızın xəstəliyə necə yoluxduğu hələlik məlum deyil.

Almaniyada meymunçiçəyinə yoluxanların ümumi sayı 2916 nəfərə yüksəlib. Onlardan 7-si qadındır. Yaş nisbətinə gəlincə, virus aşkarlanan iki gənc 15 və 17 yaşdadır.

## Dünyanı düşündürən sual

Bu gün virusla bağlı bütün dünyanı düşündürən sual yenidən qapanmaların olub-olmayacağıdır. Bu barədə müzakirələr aparılır.

Mütəxəssislər bildirirlər ki, yoluxanların sayı artmaqda davam edərsə, vəziyyət yenidən kəskinləşərsə, qapanmalar qaçılmaz olacaq. TƏBİB-in nümayəndəsi, Elmi-Tədqiqat Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini Akif Qurbanov da Azərbaycanda COVID-19 pandemiyası ilə əlaqədar müəyyən karantin tədbirləri tətbiq oluna biləcəyini istisna etmir. Bildirir ki, xəstəliyə yoluxma sayı ciddi şəkildə artarsa, xəstəxanaya yerləşdirilənlərin də sayı arta bilər: "Biz üzü payıza doğru gedirik. Havalar tədricən soyuyacaq. Ola bilər ki, yoluxma sayının həddən artıq çoxalması stasionara yerləşdirilən xəstələrin həddindən artıq artmasına səbəb olsun. Bu da bizim səhiyyə sistemini yükləyəcək. Ona görə də müəyyən karantin tədbirləri də həyata keçirilə bilər".

TƏBİB-in rəsmisi vaksinasiya prosesindən kənarda qalmamağı məsləhət görüb. Vurğulayıb ki, şərtlərə müəyyən qədər əməl etməliyik: "Sıxlıq olan yerlərdə lüzumsuz təmaslardan çəkinmək, maskalardan istifadə etmək lazımdır".

Qarşıdan gələn payız aylarında da "Omikron"un yeni mutantlarının yaranacağı da gözlənilir. Mütəxəssisləri ümidləndirən məsələlərdən biri artıq insanların təhlükəli koronavirusla nə edəcəklərini bildikləridir. Hər kəsin fərdi gigiyenik qaydalara riayət etməsi vacibdir. Eyni zamanda da insanların məsafə saxlamaları, qapalı ərazilərə getməmələri, mümkün qədər xəstə olan qohum-qonşuları ziyarət etməmələri, eləcə də peyvəndin müddəti keçibsə, risk qrupuna aid olan insanların vaksinasiyadan keçməsi tövsiyə edilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycanla Əlcəzair arasında əməkdaşlıq münasibətləri müzakirə olunub



Avqustun 10-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri, Əlcəzair Prezidentinin xüsusi nümayəndəsi Ramtan Lamamranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, təkbətək görüşdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə nazirlər arasında geniş tərkibdə görüş keçirilib.

Nazir Ceyhun Bayramov qonağı salamlayaraq Əlcəzairin müstəqilliyinin 60 illiyi münasibətilə səmimi təbriklərini çatdırıb. Nazir Azərbaycanla Əlcəzair arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin daha da inkişafı üçün geniş potensialın olduğunu vurğulayıb. İki ölkə arasında siyasi dialoqun və qarşılıqlı səfərlərin əhəmiyyətindən danışan C.Bayramov 2019-cu ilin oktyabrında Əlcəzairin sabiq Prezidenti Abdelkader Bensalahın Qoşulmama Hərəkatının (QH) XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana tarixi səfərini və Prezident İlham Əliyevlə görüşünü, bu il Əlcəzair Milli Xalq Assambleyasının sədri İbrahim Bouğalinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirakını, habelə Əlcəzairin QH-nin Gənclər Sammitində təmsil olunmasını məmnunluqla qeyd edib.

Əlcəzairin xarici işlər naziri Ramtan Lamamra səmimi görüşə görə minnətdarlığını bildirib. Ölkələrimiz arasında mövcud siyasi dialoqun və ikitərəfli təmasların intensivliyinin qorunub saxlanılmasının vacibliyini qeyd edib. O, Xarici İşlər nazirlikləri və ölkələrimizin müxtəlif qurumları arasında dialoqun daha da genişləndirilməsi, energetika və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, icmalar arasında dostluq qruplarının yaradılması kimi məsələlərə toxunub. Ramtan Lamamra Əlcəzairin Qoşulmama Hərəkatının təsisçi üzvlüyündən və sədrlikləri dövründə fəaliyyətlərindən bəhs edib, 2019-cu ildən etibarən Azərbaycanın sədrliyi çərçivəsində ölkəmizin irəliyə sürdüyü təşəbbüslərin əhəmiyyətli olduğunu bildirib. Yaxın Şərqdə gedən siyasi proseslər, Ərəb Dövlətləri Liqası və Afrika İttifaqı çərçivəsində görülən işlər barədə məlumat verib. Beynəlxalq müstəvidə hər bir problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməsinin vacib olduğunu bildirib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə Ermənistanın 30 il ərzində ölkəmizə qarşı təcavüzü, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud olan vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, azad edilmiş ərazilərin yenidən qurulması, sülh quruculuğu ilə bağlı Azərbaycan tərəfindən görülən genişmiqyaslı işlər barədə ətraflı məlumatı qonağın diqqətinə çatdırıb. Ermənistanın üzərinə götürdüyü öhdəliklərə zidd olaraq apardığı fəaliyyət və sülh quruculuğuna törətdiyi maneələr barədə məlumat verilib. Əlcəzairin ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət edilməsini birmənalı olaraq dəstəklədiyi və bu mövqeyini beynəlxalq təşkilatlar, o cümlədən müxtəlif qətnamələrin qəbulu zamanı nümayiş etdirdiyi vurğulanıb. Görüşdə həmçinin dövlətlərimiz arasında ikitərəfli çərçivə ilə yanaşı, çoxtərəfli beynəlxalq və regional formatlarda, o cümlədən BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə də fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazirlər tərəfindən "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Əlcəzair Xalq Demokratik Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Protokol" və "Azərbaycan Respublikası Hökuməti və Əlcəzair Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş" imzalanıb.

Daha sonra mətbuat nümayəndələri üçün brifinq keçirilib və nazirlər mətbuata bəyanatlarla çıxış ediblər.

# Bakıda "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" adlı konfrans keçirilib



Avqustun 10-da Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev çıxış edərək konfransın gündəliyi barədə məlumat verib.

Kamran Əliyev bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra medianın inkişafı üçün zəruri olan bütün şərait yaradılıb. Müasir Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev dövlətin bütün atributlarının, institutlarının yaradılması ilə yanaşı, medianın inkişafına da mühüm diqqət yetirib. Ulu Öndər uzaqgörən bir şəxsiyyət kimi görürdü ki, medianın inkişafı olmadan cəmiyyətin düzgün inkişafı, tərəqqisi mümkün deyil. Məhz buna görə Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk günlərdən medianın inkişafına xüsusi diqqət yetirilib. 2003-cü ildə İlham Əliyev Prezident seçildikdən sonra bu siyasət davam etdirilib.

Baş prokuror qeyd edib ki, Azərbaycan media sahəsində bütün beynəlxalq konvensiyalara qoşulub. Deyə bilərik ki, Azərbaycanda medianın, KİV-lərin inkişafı üçün bütün zəruri şərait yaradılıb. Müasir media, demək olar ki, artıq formalaşıb. Medianın cəmiyyətdə rolu doğrudan da böyükdür. Prezident İlham Əliyev medianın inkişafına böyük diqqət yetirir, medianın gündəlik fəaliyyəti ilə maraqlanır. Müasir şəraitdə medianın inkişafı olmadan cəmiyyətin inkişafı mümkün ola bilməz. Medianı klassik olaraq hakimiyyətin dördüncü qolu adlandırmışıq. Müşahidələr onu göstərir ki, bu, yalnız sözdə belə deyil. Azərbaycanda media, demək olar ki, artıq dördüncü hakimiyyətdir.

K.Əliyev həmçinin deyib: "Son vaxtlar mətbuatda gedən cinayət faktları ilə bağlı məlumatları diqqətlə izləyirik. Bu, bizim gündəlik fəaliyyət istiqamətlərimizdən biridir. Çalışırıq ki, orada gedən kriminal xarakterli məlumatlara dərhal reaksiya verək və qanunla nəzərdə tutulmuş tədbirlər görək".

Qeyd edilib ki, Vətən müharibəsi dövründə jurnalistlərimiz, media nümayəndələrimiz qəhrəmancasına fəaliyyət göstəriblər. Həm birbaşa cəbhə bölgəsində, döyüşlər gedən bölgədə olur, cəmiyyəti məlumatlandırırdılar, həm də ölkəmizdə baş verən bütün hadisələr, Azərbaycanın ədalətli mövqeyi barədə məlumatları beynəlxalq ictimaiyyətə, bütün dünyaya çatdırırdılar. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan jurnalistikasının səyləri nəticəsində biz artıq əvvəlki illərdən fərqli olaraq, informasiya blokadasını dəf etdik. Azərbaycan artıq öz həqiqətləri, Qarabağ ətrafında gedən bütün proseslərlə bağlı dünya ictimaiyyətini məlumatlandırıb.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Azərbaycanda informasiya mühitinin sağlamlaşdırılması istiqamətində görülən işlər, redaksiya siyasəti və jurnalistlərin sosial şəbəkədə fəaliyyəti barədə çıxış edib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov rəhbərlik etdiyi qurumun media ilə dövlət arasında münasibətlərin tənzimlənməsi funksiyası, jurnalistlərin peşə davranışları qaydalarının tətbiqində mövcud problemlərlə bağlı məlumat verib. O son vaxtlar ölkəmizdə medianın inkişafı ilə bağlı xeyli islahatların həyata keçirildiyini, "Media haqqında" qanunun qəbul edildiyini söyləyib. Cəmiyyətin media savadlılığının artırılması istiqamətində işlərin görülməsinin əhəmiyyətini qeyd edib.

Əflatun Amaşov həmçinin bildirib ki, Mətbuat Şurası media ilə ictimaiyyət arasında münasibətləri tənzimləyən ictimai qurumdur. Bu vaxta qədər Mətbuat Şurasına vəzifəli şəxslər, vətəndaşlar tərəfindən 18 minə yaxın şikayət daxil olub. Şikayətlərin tam əksəriyyəti araşdırılıb. Bu günlərdə də Mətbuat Şurasına şikayətlər daxil olmaqdadır. Azərbaycan mətbuatında reketçilik mövcuddur. Daxil olan şikayətlərin də 30-35 faizi reketçiliklə bağlıdır. Reketçiliklə bağlı məsələlərin cinayət işi olduğunu söyləyən Əflatun Amaşov bunu edənlərlə bağlı qanunun sərtləşdirilməsini təklif edib.

Sonra Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev media sahəsində yol verilən qanun pozuntularına görə prokuror təsir tədbiri aktlarının növləri, tətbiqi əsasları, nəticələri, inzibati icraatın başlanmasının əsasları barədə məruzə ilə çıxış edib.

Konfransda sosial mediada saxta məlumatlar, insanların təhqir və təhdid olunması, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna xələl gətirilməsi problemi və onun həlli yolları, sosial mediada mənfi təzahürlərlə mübarizədə beynəlxalq təcrübə, media sahəsində olan qanunvericiliyin pozulması halları, qanun pozuntularına dair "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunların düzgün tətbiqi, dövlət maraqlarına, ölkənin informasiya təhlükəsizliyinə, ictimai şüura, insanların psixoloji durumuna mənfi təsir göstərən xəbərlərin sosial şəbəkələrdə yayılması və mediada qabardılması, intihar halları, vətəndaşların özəl həyatı və bu kimi digər məsələlərin işıqlandırılması və müzakirəsinin cəmiyyət üçün fəsadları, qeyri-dəqiq və mənbəyi şübhə doğuran məlumatların tirajlanması və jurnalist məsuliyyəti, ictimai şüura və cəmiyyətin əhvalına mənfi təsir göstərən halların işıqlandırılması kimi mövzular ətrafında çıxışlar olub.

Daha sonra iştirakçılar konfransın mövzusu ətrafında fikir mübadiləsi aparıb, fikirlərini səsləndiriblər.

# İƏT qanunsuz erməni silahlı dəstələrinin Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutmasını pisləyib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi Azərbaycanın ərazisində qanunsuz erməni silahlı dəstələrinin avqustun 3-də Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması nəticəsində hərbi qulluqçu Anar Kazımovun şəhid olmasını pisləyən bəyanat yayıb.

Baş Katiblikdən AZƏRTAC-a daxil olan bəyanatın mətnində qeyd olunub ki, İƏT Ermənistanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə və qanunsuz silahlı dəstələri Azərbaycan ərazisindən çıxarmağa çağırır.

İƏT Xarici İşlər Nazirləri Şurasının bu il martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş 48-ci sessiyasında qəbul etdiyi qətnaməni xatırladan Baş Katiblik, eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin qarşılıqlı tanınma, bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında həllinə çağırıb.

İƏT-in Baş Katibliyi Azərbaycan şəhidinin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

# Azərbaycan ombudsmanı Ukraynada həbsdə olan vətəndaşlarımızla bağlı ukraynalı həmkarına müraciət edib

Ukraynada həbsdə olan vətəndaşlarımız Misir Qasımlı və Sübhan Quliyevlə əlaqədar Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tərəfindən Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkili Dmitri Lubinetsə müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Ombudsman Aparatından bildirilib.

Qeyd olunub ki, vəkil Dobranitsa Valeriy Mixayloviç hüquqlarını müdafiə etdiyi Azərbaycan vətəndaşları Qasımlı Misir Elman oğlu və Quliyev Sübhan Babək oğlu barəsində başlanmış cinayət işinin istintaqı zamanı prosessual hüquq pozuntularına yol verilməsi, hazırda isə Ukraynanın Kiyev vilayəti üzrə Obuxov Rayon Məhkəməsində işə qeyri-obyektiv baxılması ilə bağlı ombudsman Səbinə Əliyevaya müraciət edib. S.Əliyeva məsələ ilə bağlı Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkili Dmitri Lubinetsə məktub ünvanlayıb və adıçəkilən vətəndaşlarımızın hüquqlarının səmərəli müdafiəsi və təminində səlahiyyətləri çərçivəsində kömək göstərilməsini xahiş edib.


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün kompüter və noutbukların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (arayış 01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə sertifikatı, uyğunluq sertifikatı və s.);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 15.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 23.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## ASCO-nun (AM147/2022) struktur idarələrinə yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 18 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## XDND-nin Pirallahı sahəsində damba yük və yedək yanalma körpüsünün layihələndirilməsinin (AM147/2022) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 18 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# REGİONLAR





# Pambığı «ağ qızıl» edənlər

## "MKT-İK" MMC-nin Neftçala filialı birinciliyi əldə saxlamaq əzmindədir

**Filial keçmiş pambıq zavodunun bazasında yaradılıb. Sovetlər birliyi süquta uğradıqdan sonra bir çox pambıq zavodları kimi bu müəssisə də fəaliyyətini dayandırmışdı. Səbəbi isə respublikaya rəhbərliyə gələn naşı adamların strateji əhəmiyyətli pambığa dəyər verməməyi, müxtəlif bəhanələrlə onu gözdən salması olmuşdu.**

İqtisadi əlaqələrin pozulması da bu işə mənfi təsirini göstərmişdi. Pambıq istehsalı dayandığı üçün onu emal edən müəssisələrə də ehtiyac qalmamışdı və bu müəssisələr nəzarətsizlik üzündən qısa vaxtda dağıdılaraq bərbad hala salınmışdı.

SSRİ zamanında Neftçala rayonunun Aşağı Qaramanlı kəndindəki pambıq zavodu respublikada müasir emal müəssisələrindən biri olub. Onu tikib-quran isə zavodun direktoru Bahəddin Leysanov idi. Müəssisə hələ o vaxtlar da göstəriciləri ilə pambıq zavodları arasında fərqlənirdi. Sonra isə 1990-cı illərin məlum hadisələri pambıqçılıq sahəsinin özü kimi bu zavodun taleyindən də yan keçmədi. Zavod fəaliyyətini yalnız 2017-ci ildə bərpa etdi. Qeyd edək ki, o vaxta qədər rayonda istehsal olunan az miqdarda məhsul Salyan pambıqtəmizləmə zavoduna verilirdi. Elə həmin illər Azərbaycanda fəaliyyət göstərməyə başlayan "MKT-İK" MMC-nin rəhbərliyi Salyandakı zavoda B.Leysanovu direktor təyin etdi. Torpaq mülkiyyətçiləri onu yaxşı tanıdıqları və ona inandıqlarından bu müəssisə ilə müqavilə bağlamağa başladılar.

Pambıqçılığa maraq artdığından qonşu Neftçala rayonunda da "ağ qızıl" dediyimiz bitkinin əkini əhəmiyyətli dərəcədə genişlənirdi. Bu isə Neftçala pambıqtəmizləmə zavodunun işə düşməsinə ehtiyac yaradırdı. Həmin iş də təbiət etibarilə qurub-tikən, təcrübəli B.Leysanova həvalə edildi və onun rəhbərliyi ilə gecəli-gündüzlü gərgin əmək nəticəsində zavod yenidən quruldu. İki kilometr aralıdan keçən Kür çayından müəssisəyə su xətti çəkildi, qurğular, avadanlıqlar yeniləri ilə əvəz edildi, işıq, qaz xətləri, transformatorlar, qaztənzimləyici qurğu təzələndi. Zavodun ərazisinin abadlığı da unudulmadı. İndi müəssisənin həyəti istirahət mərkəzlərinə bənzəyir.

"MKT-İK" MMC-nin Neftçala filialının iqtisadi göstəriciləri də digər filiallardan yüksəkdir. 2021-ci ildə filial üzrə 16 min 630 tondan çox pambıq tədarük edilmişdir. 1072 nəfər fermerin hər biri götürdüyü öhdəliyə əməl edərək orta məhsuldarlığı 34,2 sentnerə çatdırmışdır. Filialın rəhbərliyi, sahə rəisləri, aqronomları, mexanizatorları, ümumilikdə bütün kollektivi şumdan başlamış pambığın sahələrdən son qozasına qədər yığılıb təhvil verilməsinədək hər gün sahibkarların, fermerlərin yanında olur, onlara hər cəhətdən kömək göstərir, mütəxəssis məsləhəti və tövsiyələr verirlər.

Xam pambığın emal edilərək mahlıc halına gətirilməsi işi də burada yüksək səviyyədə qurulmuşdur. Konveyer üsulu ilə işləyən zavodda xam pambıq sorucu qurğularla barabanlara ötürülərək qurudulur, sonra "cin", yəni pambığın çiyiddən ayrılması və zibildən təmizlənməsi sexinə göndərilir. Növbəti mərhələdə təmiz pambıq kipləşdirilərək transportyorlar vasitəsilə anbarlara yığılır. Yeri gəlmişkən qeyd edək ki, keçən mövsüm mahlıc çıxımı 42 faiz olmuşdur.

Filial üzrə tarlalardan məhsulun 85 faizi maşınlarla yığılır. Bu göstəricilərə görə, müəssisə keçən il MMC-nin 15 filialı arasında birinci olmuş, 2019 və 2020-ci illərin uğur estafetini əldən verməmişdir.

Hazırda pambıqçılıqda mühüm dövrdür. Kolların aşağı hissəsində qozalar artıq formalaşmışdır. Buna "daban qozası" da deyilir. Gül və daraqlar isə bir azdan qoza şəklinə düşəcək. Lakin sahibkarlar bir saat da olsun pambıq əkinlərini nəzarətsiz qoymur, becərmə işlərini davam etdirirlər. Cərgələr arasında gəzib sovkanın olub-olmamasını yoxlayır, orada-burada gözə dəyən alaq otlarını götürtdürür, kultivasiya çəkdirir, ucvurma etdirir, suvarma işləri gördürürlər. Bir sözlə, yüksək məhsul üçün hər kəs daha gərgin, daha məsuliyyətlə çalışır. Bütün bu işlərdə "MKT-İK" MMC sahibkarların yanındadır.

Fermer İmaməddin Dadaşov deyir ki, pambıqçılıq çətin sahədir, xüsusilə suyun qıt olduğu indiki dövrdə: "Pambıq isə su ilə böyüyür, bar verir. Keçən il çox çətinliklərlə üzləşdik. Kür çayına Xəzər dənizindən daxil olan şor su bitkilərin bir hissəsini inkişafdan saxladı, bir hissəsini isə yandırdı. Buna baxmayaraq, var gücümüzlə çalışdıq, gecəni gündüzə qatdıq. Allah zəhmətimizi yerdə qoymadı. Müqavilə bağladığımız filialın rəhbəri Bahəddin Leysanov, baş aqronom Namiq Bağırov və digər mütəxəssislər hər gün tarlalara baş çəkərək hansı aqrotexniki tədbirlərin görülməli olduğunu bizə başa saldılar. Kultivasiya işinin sayının artırılması hesabına sudan yaranan geriliyi aradan qaldırdıq. Nəticəsi yaxşı oldu. Allahın evi abadan, pis dolanmırıq. Odur ki, oğlumu da pambıqçılığa, təsərrüfat işlərinə cəlb etmişəm. Fikri var idi ki, Bakıya gedib özünə bir iş tapsın. Başa saldım ki, burada daha yaxşıdır. İndi şükürlər olsun, hər şərait var, pambığı, təsərrüfatı da məndən yaxşı bilir".

Sonra həmsöhbətim kolları aralayaraq qoza, daraq və gülləri bir-bir nəzərdən keçirdi. Deyəsən, sovka görmüşdü. "Vicdansız yenə peyda olub. Bir neçə gün əvvəl dərmanlamışam. İndiki dərmanlardan da baş açmaq olmur. Təsiri yox dərəcəsindədir, - deyib cibindən telefonunu çıxarıb zəng vurdu: "Oğlum, Fərid, kəndin qarşısındakı kanalın o tərəfindəki 7 hektardayam. Sahə aqronomu Vüqar Həsənov mənimlədir. Burada yaman sovka əmələ gəlib. Təcili dərmanlamaq lazımdır. Axşam hava qaralananadək "Karagen" preparatı ilə mütləq dərmanlamalıyıq. O, güclü dərmandır. Yoxsa quzunu qurda verərik".

Söhbət zamanı o da məlum oldu ki, İ.Dadaşov cari ilin məhsulu üçün may ayında 40 hektara çiyid səpib. Sahələrə əvvəlcə şum altına fosfor gübrəsi verib. Əkin zamanı isə ammofosdan istifadə edib. Yazın bir az soyuq keçməsi qayğılarını artırsa da, becərmə zamanı aqrotexniki tədbirləri keyfiyyətlə aparıb. Hər hektara 350 kiloqram karbamid gübrəsi verib. Bütövlükdə 4 dəfə kompleks becərmə həyata keçirib. İndidən sonra bir dəfə də becərmə aparmağı və suvarmağı nəzərdə tutub.

Fermer onu da dedi ki, hər hektardan 50 sentner məhsul götürməyə söz verib: "İnşallah, sözümə əməl edəcəyəm. Bahəddin müəllimlə işləmək adama ləzzət verir. Nə vaxt istəsən, nə istəsən, qulluğunda hazırdır. Siz deyin, belə adamın etibarını necə doğrultmayasan". Sonra da əlavə etdi: "Bir şey yadıma düşdü. Bayaq dedim, keçən il su sarıdan korluq çəkdik. Bu hal təkrar olunmasın deyə, Bahəddin müəllim salyarka ilə işləyən bir neçə su nasosu alıb gətirdi. İndi kimə lazım olursa, aparıb istifadə edir, sahələrini suvarır".

Bu gün təkcə İ.Dadaşov deyil, filialla müqavilə bağlayan digər fermerlər də yüksək məhsul uğrunda çalışırlar. Filial isə pambıq qəbulu və emalı ilə əlaqədar hazırlıq işlərini görür. Deməli, "MKT-İK" MMC-nin Neftçala filialı birinciliyi bu il də əldən verməyəcək.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Ağcabədililərdən nümunə olacaq xeyirxah təşəbbüs

Hər yerdə olduğu kimi, Ağcabədidə də bir sıra məscidlərdə Aşura mərasimləri keçirilib. İnsanlar məscidlərə gəlib dini ayinləri icra ediblər.

Rayonun Mehrablı kəndinin sakinləri isə bu mərasimə fərqli yanaşıblar. Onlar həmin gün məscidin qarşısındakı nəzir qutusuna topladıqları vəsaitin nəyə sərf ediləcəyini əvvəlcədən biliblər. Elə ona görə də kənddə bu xeyirxah təşəbbüsdən kənarda qalan olmayıb.

Bizdən isə onu qeyd etmək qalır ki, Mehrablı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, yerli bələdiyyə və kənd ağsaqqalları Teymur İmanov, Baba İmanov və Əkbər Səfərovun xeyirxah təşəbbüsü ilə Aşura günü nəzir qutusuna yığılan məbləğ 2 övlad anası, qaraciyər xəstəliyindən əziyyət çəkən N.Məmmədovanın müalicəsinə sərf olunacaq.

Nə demək olar, nümunə götürüləsi təşəbbüsdür.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Ağdam rayonunda 420 hektar sahədə təkrar əkin aparılıb

Ağdam rayonunda fermerlər və torpaq mülkiyyətçiləri kənd təsərrüfatı işlərini davam etdirirlər.

Rayonda məhsul yığımı ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqi də uğurla həyata keçirilir, yüksək məhsuldarlıq əldə etmək üçün torpağa lazımi aqrotexniki qulluq göstərilir.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, avqustun 1-dək 420 hektar sahədə təkrar əkin işləri aparılıb. Həmin əkinin 364 hektarını və ya 86,7 faizini yem bitkiləri, 56 hektarını və ya 13,3 faizini tərəvəz bitkiləri təşkil edir. Yem bitkilərinin 239 hektarı və ya 65,7 faizi silos üçün qarğıdalı, 75 hektarı və ya 20,6 faizi sorqo, 50 hektarı və ya 13,7 faizi darı bitkisidir.

## Sabirabadda yeni nasos stansiyası istifadəyə verilib

Bununla bağlı rayonun Kürkəndi kəndində açılış mərasimi keçirilib. Mərasimdə rayonun və "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi, həmçinin fermerlər, rayon sakinləri iştirak ediblər.



Çıxış edənlər bildiriblər ki, Sabirabad rayonunda əkin sahələrinin suvarılması üçün əsas qida mənbəyi kimi Kür çayından istifadə olunur. Çay üzərində yerləşən nasos stansiyalar vasitəsilə su kanallara və sahələrə ötürülür. Qeyd olunub ki, növbəti belə stansiya rayonun Kürkəndi kəndində istifadəyə verilib. Stansiyada quraşdırılan qurğu müasir tipli qurğudur və İsveçrə istehsalıdır. Hər biri saniyədə 1,7 kubmetr suvurma gücündə olan 3 aqreqatlı stansiya həm də üzən panton üzərində yerləşdirilib ki, bu da ona çayda suyun səviyyəsinə uyğun rahat işləməyə imkan verir. Ümumi məhsuldarlığı 5,1 kubmetr saniyə olan nasos stansiyanın yeni aqreqatlar köhnə qurğulara nisbətən enerjiyə ikiqat qənaət edə biləcək və stansiya mobil çevikliyi ilə fərqlənir.

Yeni nasos stansiyası Kür çayından su götürməklə uzunluğu 19 km olan ötürücü və sahələrə su çatdıran 54 km uzunluğu olan Sabir kanal şəbəkəsinə su vuracaq. Eyni zamanda sudan səmərəli istifadə məqsədilə nəzərdə tutulan tədbirlər planına əsasən Sabir kanalının beton üzlüyə alınması üçün layihə hazırlanır və tam başa çatdıqdan sonra kanalın beton üzlüyə alınmasına start veriləcək.

## ◆ Qax xəbərləri

### "Yaylaq fındığı" yığılır

Son illər Azərbaycanda kənd təsərrüfatının ixrac potensialı yüksək olan sahələrinin - tütünçülüyün, baramaçılığın və fındıqçılığın inkişafına xüsusi diqqət göstərilir. Fındıqçılıq Qax rayonunda da kənd təsərrüfatının əsas sahələrindəndir.

Prezident İlham Əliyevin sədrliyi ilə 2017-ci ilin avqust ayında Qaxda keçirilən respublika müşavirəsindən sonra qaxlı fermerlər və fərdi təsərrüfat sahibləri fındıqçılığa göstərilən dövlət dəstəyindən bəhrələnərək bu sahəni daha da inkişaf etdirmişlər.

Hazırda Qaxda 10186,9 hektar fındıq bağı var. Bunun 6228 hektarı bar verən, 3958,9 hektarı yeni salınan bağlardır. Yeni salınan bağların 678 hektarını intensiv (damcı üsulu ilə suvarılan) bağlar təşkil edir.

Aqrar subsidiyaların verilməsi bağlara qulluq edilməsini xeyli yaxşılaşdırıb. Bunun nəticəsində məhsul boldur. Ötən il rayonun fındıq bağlarından 5293,8 ton məhsul əldə edilmişdir. Cari ildə bağlarda məhsul daha çoxdur.

Bu günlər rayonda "yaylaq fındığı"nın yığılmasına başlanılıb. Fermerlərimiz bu il ötən ildəkindən iki dəfə çox məhsul toplayacaqlarını deyirlər. Fındıq bağlarından ən azı 10 min ton məhsul gözlənilir.

### Qarğıdalı sahələrində məhsul boldur

Ötən il Qaxda fermerlər 1516 hektarda qarğıdalı yetişdirmişlər. Rayon üzrə hektardan məhsuldarlıq 78,2 sentner olmuşdur.

Fermerlərdən Yavər Nurməmmədov hektardan 100, Nikola Aslamazaşvili 90, Novruz Manafov 80 sentner məhsul əldə etmişlər.

Bu il fermerlər 1556 hektar sahədə dənlik qarğıdalı əkmişlər. Sahələrdə məhsul boldur. Uzun illər qarğıdalı əkib-becərməklə məşğul olan fermer Yavər Nurməmmədov deyir ki, bu il ötən ildəkindən daha çox məhsul götürəcək: "Sahələrdə bütün aqrotexniki xidmət işlərini vaxtında görmüşük. Həm də hava şəraiti qarğıdalı üçün çox əlverişli keçib. İnanıram ki, bu il hektardan 150 sentner məhsul götürəcəm. Bu isə ailə büdcəmi və təsərrüfatımı genişləndirməyə yeni imkanlar verəcək".

Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Eyvaz Aslanov bildirib ki, sahələrdə gözlədiklərindən daha çox məhsul var: "Bu il qarğıdalı sahələrində son illərin ən yüksək göstəricisini əldə edəcəyik. Güman edirik ki, rayonda orta hesabla hektardan ən azı 80 sentner məhsul toplanacaq".

### Yay şumu sürətlənir

Ötən il rayonda cari ilin məhsulu üçün 13238,5 hektar sahədə taxıl əkilmişdir.

Havaların əlverişsiz keçməsinə baxmayaraq, fermerlər 8830,5 hektar buğda sahəsinin hər hektarından 33,4 sentner, 4408 hektar arpa sahəsinin hər hektarından isə 29,6 sentner məhsul əldə etmişlər. Taxıl sahələrindən anbarlara cəmi 42556 ton məhsul daşınmışdır.

Hazırda rayonun taxıl sahələrində qızğın iş gedir. Fermerlər gələn ilin bol məhsulu üçün əsaslı zəmin yaradan yay şumuna başlayıblar. Hələlik 7995 hektarda yay şumu aparılıb.

Qaxda gələn ilin məhsulu üçün 13500 hektarda taxıl əkilməsi proqnozlaşdırılıb. Fermerlər yay şumunun keyfiyyətli aparılmasına xüsusi diqqət yetirirlər. Çünki bol məhsulun əsası məhz yay şumunda qoyulur.

Eyni zamanda fermerlər təkrar qarğıdalı əkininə də başlamışlar. Hələlik məhsulu yığılmış taxıl sahələrinin 727 hektarında təkrar qarğıdalı əkini aparılıb.

***Xavər ƏFƏNDİYEVA,***
***rayonda çıxan "Şəlalə" qəzetinin redaktoru***

## Siyəzənin dağ kəndlərində taxıl biçini yekunlaşıb



Siyəzəndə taxıl biçini yekunlaşıb. Rayon üzrə ümumi əkin sahəsinin 5648 hektarında payızlıq buğda və arpa səpini aparılmışdır.

Buğda əkilən 2779 hektarın 514 hektarı suvarılan, qalanı dəmyə olmuşdur. 2869 hektara səpilmiş arpa toxumununsa 1376 hektarı dəmyə torpaqlarının payına düşmüşdür. Ötən təsərrüfat ilinə nisbətən buğda sahəsi 559 hektar azalmış, arpa sahəsi 44 hektar artmışdır.

Dağ kəndi Sədanda da taxıl biçini yekunlaşmışdır. Əkin sahələrinin çoxu dəmyə olduğu üçün taxıl gec yetişdiyindən gec də biçilir. Kənd sakini İsmayıl Muradzadə bildirir ki, mayın sonlarında yağan yağışlar becərməyə bir qədər mane olsa da, sonda məhsul bol oldu: "Düzdür, biçin zamanı torpaq nəmli olduğundan kombaynlar sahəyə günortadan sonra çıxırdı. Amma şükür ki, biçini itkisiz başa çatdırdıq". İ.Muradzadənin bu şükrü boş yerdən deyildi. Bir neçə il əvvəl qonşu kənddə taxıl sahəsində baş verən yanğın neçə nəfərin zəhmətini külə çevirmişdi.

Cari mövsüm hər hektardan 20,6 sentnerə yaxın arpa biçən kənd sakinləri onu, əsasən, heyvandarlığa sərf edirlər. Sədanlılar əlavə olaraq 30 hektara yaxın sahədə qarğıdalı da becərirlər. O da, əsasən, mal-qaraya verilir. Buğda isə yaxınlıqdakı dəyirmana göndərilir. Daşqın Məmmədov bildirir ki, kəndlinin təknəsi çörəkli olanda, demək qışın qorxusu yoxdur: "Maşallah, kənddə hamının çörəyi var. Hətta il boyu qonşu kəndlərə tonlarla buğda satırıq. Paytaxtda və Sumqayıtda keçirilən yarmarkalardan da qalmırıq".

Ümumiyyətlə, sədanlılar pay torpaqlarından səmərəli istifadə edirlər. Sədan kəndinin sahibkarlarına dövlət tərəfindən güzəştli qiymətlə gübrə, taxıl əkilən hər hektara görə subsidiya verilir. Şaiq Bayramov, Araz Bağırov, Məmməd Qasımov, Elmar Cəbiyev, Şaban Qəribli dövlətin dəstəyindən yetərincə razı qaldıqlarını bildirirlər.

Sədanlı fermerlər hazırda biçin yekunlaşmış sahələrdə şumlama ilə məşğuldurlar. Kənddə hamı yaxşı bilir ki, vaxtında çəkilən zəhmət gələcəyin məhsul bolluğu deməkdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Ürəkləri yaşadan görkəmli alim



"Ürəyimizin döyüntüsü varlığımızın doğma səsidir. Nə qədər ki, köksümüzün altında ürək nizamla döyünür, qəlb sözümüzə baxır, deməli, hələ yaşamağa dəyər. Amma insan orqanizminin bütün ömrümüz boyu bir saniyə də işinə ara verməyən bu ən çalışqan orqanının da bizim diqqət və qayğımıza daim ehtiyacı var. Mənfi düşüncələrlə, zərərli vərdişlərlə, hədsiz gərginliklərlə ürəyi çox yormasaq, daim sağlam saxlasaq, uzun illər xidmətimizdə durar, bizi yaşamağa, həyatdan zövq almağa ruhlandırar".

Görkəmli kardioloq-alim, Azərbaycan Tibb Universitetinin Kiliniki farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Adil Baxşəliyevin müayinə və müalicə etdiyi pasiyentlərinə də, həmsöhbət olduğu bütün insanlara da əsas tövsiyəsi məhz budur. Çünki ömrünün böyük bir hissəsini kardiologiya sahəsinə həsr etmiş peşəkar həkim ürəyin insanın həyat və sağlamlığında nə qədər böyük rol oynadığını gözəl bilir.

## Ürəyi qorumaq, ona qarşı rəhmli olmaq lazımdır

Hər dəfə onunla görüşəndə ilk sözü bu olur:

- Ürəyin sözünə baxırmı? Gərək ona vaxtlı-vaxtında qulluq edəsən ki, o da səni yarı yolda qoymasın. Bundan ötrü fiziki aktivliyi artırmalıyıq. Düzgün və zamanında qidalanma, yuxu, istirahət, iş şəraiti də çox önəmlidir. Ürək gecə-gündüz dayanmır. Biz əsəbiləşirik - ürək reaksiya verir. Sevinirik - ürək şiddətlə döyünür. Bütün bunlara dözən ürəkdir.

- Xəstələriniz yenə də çoxdur - deyə soruşduq.

- Çoxdur... Nə qədər acınacaqlı olsa da, ürək xəstəlikləri ilbəil cavanlaşır. İnsanlarda stres, narahatlıq, həyəcan hissləri çoxalıb. Bunlara paralel olaraq kardioloqlara müraciət edənlərin sayı da artıb. Yəni onların işi, qayğıları, problemləri günbəgün üst-üstə gəlir. Çətindir, amma çox çalışırıq ki, onları müalicə edək. Nəticə də var. Bu gün bütün dünyada ölümlərin əsas səbəblərindən biri ürək-damar xəstəlikləridir. Amma xəstələrimi gümrah görəndə sevinirəm. Ürəyə ürəklə yanaşmaq, ona qarşı rəhmli olmaq lazımdır.

Müasir dünyamızda ürək-damar xəstəliklərinin əhatə dairəsinin genişlənməsi, bu xəstəliyin gəncləşməsi ürəyin sağlamlığı problemini xüsusilə aktuallaşdırır. Texnologiyaların inkişafı, dünyanın mobilləşməsi ilə bağlı olaraq həyatımızın sürəti, dinamizmi yüksəlib, bu isə stresi artırır, qanda toksiki maddələrin, həyəcan hormonlarının çoxalmasına səbəb olur. Nəticədə ürək-damar xəstəlikləri çoxalır.

## Tale seçimi

Tibbin sahələri çoxdur. Kardiologiya ən çətin, ağır və məsuliyyətli bir sahədir. Xalq arasında bu sahənin mütəxəssislərinə "ürək həkimi" deyirlər. Belə çətin sənətin yükünü ömürlük çiyinlərinə götürənlərin ilk növbədə özləri ürəkli olmalıdırlar. Çünki ürəyin ağrısını duymaq üçün ən həssas, ən incə duyğulu qəlb gərəkdir. Onu sağaltmağa isə dərin bilik, səriştə lazımdır. Hər ürək xəstəsinə fərdi münasibət isə öz yerində.

Artıq bir neçə onillikdir ki, xəstələr əsl ürək həkiminə xas olan yüksək keyfiyyətləri professor Adil Baxşəliyevdə tapırlar. Səbəbi isə odur ki, A.Baxşəliyev onların ürəyinin dərdini də bilir, dərdinin çarəsini də!

Görkəmli alimə öz sənətində böyük uğurlar qazandıran əsas amillər onun insan sağlamlığına münasibətdə yüksək məsuliyyət hissi, eyni zamanda böyük ürək sahibi olmasıdır. Xarakterindəki yorulmazlıq, məqsədyönlülük, qətrə-qətrə topladığı zəngin bilik və təcrübə, yeni ömür bəxş etdiyi minlərlə pasiyentin, onların doğmalarının sevgisini qazanması, ən əsası isə seçdiyi sənətinə sədaqəti professoru indiki zirvəyə yüksəldib.

Tibb elmi, həkimlik fəaliyyəti onun üçün sənətdən də çox taledir. Bu taleyi Adil Baxşəliyev özü seçib. 1952-ci ildə dövrünün görkəmli ziyalısı və ictimai xadimi, 19 il Azərbaycanın maliyyə naziri kimi yüksək vəzifəni şərəflə daşımış Baxşəli Baxşəliyevin ailəsində dünyaya gəldiyindən, bəlkə çoxları düşünürdü ki, oğul övladı da gələcəkdə atasının yolunu davam etdirəcək. İqtisadiyyat elminin sirlərinə yiyələnərək bu sahədə çalışmağa başlayacaq. Amma hələ orta məktəb illərindən onda həkimlik sənətinə böyük sevgi vardı. Həkimlər onun üçün insanların ümid, pənah yeri idilər. Ona görə də qət etmişdi ki, gələcəkdə həkim olacaq. Baxşəli müəllimin ailəsində Adillə birgə altı övlad böyüyürdü. Əsl Azərbaycan ziyalısına xas aydınlığa, müdrikliyə, eyni zamanda cəsarətə, mərdanəliyə, səmimiyyətə malik Baxşəli Baxşəliyev övladlarına halallıq, haqq-ədalət, milli köklərə bağlılıq dəyərlərini ötürürdü. Onların maarif işığında böyümələri üçün hər şəraiti yaratmağa çalışırdı. Bu ailədə böyüyən övladların hamısı elmə, təhsilə həvəsi, səxavət, humanistlik, fədakarlıq, torpağa, xalqa sevgi dərslərini ilk növbədə valideynlərindən almışdılar. Məhz evdəki tərbiyə və intizam mühitinin təsiri ilə Baxşəli müəllimin övladlarının beşi orta məktəbi qızıl medalla bitirdi, onlardan dördü həm də ali məktəbi fərqlənmə diplomu ilə başa vurdu.

Adil Baxşəliyev bu övladlardan biri idi. 1969-cu ildə o, Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun tələbəsi oldu. 1975-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirdi, 1976-cı ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Birinci terapiya kafedrasında böyük laborant kimi işə başladı. Növbəti iki ildə həmin institutda mərkəzi elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi vəzifəsində işlədi. O illərdə gənc həkimin üzünə daha bir uğur qapısı açıldı. Ölkəmiz üçün xüsusilə nadir ixtisaslar üzrə peşəkar kadrların hazırlanması məqsədilə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və birbaşa dəstəyi ilə keçmiş ittifaqın nüfuzlu ali məktəblərinə azərbaycanlı gənclərin göndərilməsinə başlanmışdı. Adil Baxşəliyev də aspirantura təhsili almaq üçün Moskvaya göndərildi. O, 1978-ci ilə qədər bu şəhərdə Ümumittifaq Elmi-Kardioloji Mərkəzdə "daxili xəstəliklər" ixtisası üzrə məqsədli aspiranturada təhsil aldı. 1981-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək Bakıya qayıtdı. Fəaliyyətini yenə də Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Birinci terapiya kafedrasında həkim-assistent kimi davam etdirməyə başladı.

## Vətənə xidmət duyğusu

Üç ildən sonra isə onun karyerasında dəyişiklik baş verdi. Gənc alim Adil Baxşəliyev Elmi-Tədqiqat Kardiologiya İnstitutuna dəvət aldı. 1984-1985-ci illərdə bu institutda arterial hipertoniya şöbəsinin müdiri vəzifəsində işlədi. O, xəstələrin müayinə və müalicəsi ilə məşğul olur, eyni zamanda elmi tədqiqatlarını davam etdirirdi. Moskvada keçən aspirantura illərində burada gördüyü elmi mühit, böyük məktəb, dünyaşöhrətli alimlərlə əməkdaşlıq, xarici təcrübənin, zəngin resursların əlçatanlığı onu özünə çəkirdi. Doktorantura təhsilini, doktorluq dissertasiyası üzərində tədqiqatlarını da burada aparmağı qət etdi. Bu arzusunun ardınca yenidən Moskvaya getdi. 1985-ci ildə N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunda "kardiologiya" ixtisası üzrə doktoranturaya qəbul olundu. Beş il burada doktorantura təhsili aldı. 1990-cı ildə doktorluq dissertasiyasını da uğurla müdafiə etdi. 38 yaşlı perspektivli kardioloqun Moskvanın nüfuzlu elmi mərkəzlərində qalıb işləməsini istəyən alimlər çox idi. Onlar Adil Baxşəliyevə alimlik və həkimlik fəaliyyətini Moskvada davam etdirməyi təklif edirdilər. Amma o, fərqində idi ki, dövlət müstəqilliyini bərpa etməkdə olan Azərbaycanda indi ona daha çox ehtiyac var. Moskvadakı elmi mərkəzlərdən gələn təkliflər hər nə qədər cəlbedici olsa da, Adil Baxşəliyev Vətənə qayıtmağı üstün tutdu. Onda Azərbaycan ağır sınaqlar dövrünü yaşayırdı. Cəmiyyət ciddi sosial-iqtisadi təlatümlərlə üzləşmişdi. Tibb sahəsində xeyli problemlər vardı. Vəziyyətin necə olacağı aydın deyildi. Bununla belə, Adil Baxşəliyev kimi alimlər bilirdilər ki, problemlərin həlli üçün peşəkar mütəxəssislərin, məsuliyyətli ziyalıların köməyinə çox böyük ehtiyac var. Məhz bu hissin diktəsi ilə çətinliklər onu qorxutmadı, ölkəyə xidmət duyğusundan çəkindirmədi. Yüksək elmi potensiala malik tanınmış kardioloq-alim 1990-1991-ci illərdə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinin Birinci daxili xəstəliklər kafedrasının müdiri vəzifəsini tutmaq üçün müsabiqədən keçdi və həmin vəzifəyə təyin olundu. 1992-ci ildə isə kliniki farmakologiya kafedrasının müdiri seçildi.

## Onun üçün öyrənməyin yaşı yoxdur

1998-ci ildə A.Baxşəliyevə daha yüksək vəzifədə etimad göstərildi. O, C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutuna direktor təyin olundu. Görkəmli alim, ATU-nun Kliniki farmakologiya kafedrası ilə yanaşı, bu instituta da rəhbərlik etməyə başladı. 21 il institutun rəhbəri oldu.




Elm ocağının qazandığı nailiyyətlərdə professor Adil Baxşəliyevin əməyi danılmazdır. Məhz onun gərgin zəhməti sayəsində Elmi-Tədqiqat Kardiologiya İnstitutu respublikanın aparıcı elm və tibb müəssisələrindən biri kimi tanındı. 12 il respublikanın baş kardioloqu vəzifəsini daşıdı.

Hazırda professor Adil Baxşəliyev Azərbaycan Tibb Universitetinin kafedra müdiri kimi gənc həkimlərin və tibb alimlərinin yetişməsinə öz töhfələrini verir. Onun üçün öyrənməyin yaşı yoxdur, Adil Baxşəliyev hələ Moskvada aspirant ikən öyrəndiyi ingilis dilini son illərdə daha da mükəmməlləşdirib və beş ildir ki, Azərbaycan Tibb Universitetində ingilis dilində mühazirələr oxuyur. Onun müxtəlif dillərdə oxuduğu mühazirələr maraqlı və yaddaqalan olur. Adil Baxşəliyev tələbə auditoriyası qarşısında müvafiq elmi məlumatları, sadəcə, səsləndirməklə, təqdim etməklə məhdudlaşdırmır. O, hər bir mühazirəsini yaradıcı və canlı şəkildə qurur. Tələbələrinin diqqətini son illərin aktual elmi informasiyaları ilə zəngin olan mühazirələrinə cəlb etməyi bacarır, onların düşüncələrini istiqamətləndirə bilir, tədris edilən fənnə sevgi oyadır. Onun mühazirələrini maraqlı edən bir amil də öz ixtisası çərçivəsində qapanıb qalmaması, geniş elmi diapazona malik olmasıdır.

## Tibb maarifçisi

Adil müəllimin bəlağətli nitqi, fikirlərinin strukturu, məntiqi ardıcıllığı, konkretliyi, mürəkkəb xəstəlikləri sadə və dərk edilən bir tərzdə anlatmaq məharəti onun yüksək natiqlik qabiliyyəti ilə yanaşı, peşəkarlığı ilə də bağlıdır. Adil Baxşəliyev pasiyentləri ilə də bu şəkildə davranır. Onları müayinə və müalicə etməklə yanaşı, həm də sadə dildə, hər kəsin başa düşəcəyi şəkildə müxtəlif xəstəliklərlə bağlı maarifləndirir. Xüsusilə ürək-damar xəstəliklərinin səbəblərini, onlardan qorunma yollarını aydın şəkildə canlandırır. Beləliklə, cəmiyyətdə tibbi maariflənmənin inkişafına xidmət göstərir. Böyük alim ədəbiyyatı, xüsusilə poeziyanı, musiqini çox sevir. Hətta ara-sıra şeirlər yazmağı, mahnılar bəstələməyi də var. Bütün bunlar ona insanların halını anlamaqda, onların daxili aləmlərini duymaqda çox böyük kömək göstərir. Bəzən onun maraqlı sözləri, nüfuzedici fikirləri belə xəstələrə dərmandan da gözəl təsir edir. Bütün bunlar 47 illik həkimlik, alimlik və müəllimlik fəaliyyətinin qazandırdığı təcrübədir. Adil Baxşəliyev 32 ildir professordur. Azərbaycanda kardiologiya üzrə ilk aspirant və doktorant olması da onun ömürlüyünün qürur dolu məqamlarındandır.

O, 1993-1998-ci illərdə respublika Farmakologiya Komitəsinə sədrlik edib. ATU-da fəaliyyət göstərən terapiya ixtisası üzrə problem komissiyasının sədri, uzun illər Səhiyyə Nazirliyinin Dördüncü Baş İdarəsinin məsləhətçisi olub.

## Elmi məktəbi olan alim

Professor Adil Baxşəliyev pedaqoji fəaliyyəti ilə elmi fəaliyyətini hər zaman uğurla bir araya gətirməyi bacarıb və onun həm səriştəli tədqiqatçı, həm praktik həkim, həm də nəzəriyyəçi alim kimi ortaya qoyduğu nəticələr parlaq şəkildə bir-birini tamamlayıb. O, 450-dək elmi əsərin, o cümlədən 4 dərsliyin, 15 metodik tövsiyənin və dərs vəsaitinin, 2 ixtiranın müəllifidir. Alimin qələmə aldığı "Ürək qan-damar sistemi xəstəlikləri" dərsliyində bu sahədə indiyədək əldə olunmuş nəzəriyyə və təcrübə əsasında kardioloji xəstəliklər və onun ayrı-ayrı sindromları haqqında əhatəli məlumatlar ümumiləşdirilib. Müəllif on üç fəsildən ibarət fundamental dərsliyində xəstəliklərin anlayışı, etiologiya və patogenizi, təsnifatı və klinikası, diaqnostikası, eləcə də rasional müalicəsi ilə bağlı müfəssəl izahlar verib. Bu baxımdan Adil Baxşəliyevin dərsliyi tibb elminin tədris edildiyi bütün ali məktəblərdə ürək qan-damar xəstəliklərini öyrənməkdən ötrü sanballı fundamental mənbədir.

"Antiaritmik vasitələr, ürək qlükozidləri" (1993), "Hipotenziv dərman maddələri" (1995, digər müəlliflərlə birlikdə), "Klinik farmakologiya" (Dərslik. 2004 və yeni nəşr, 2009), "Mədə-bağırsaq sistemi xəstəliklərinin farmakoterapiyası" (2006), "Kardiologiya" monoqrafiyası və eyniadlı dərsliyi, "Ürək-damar xəstəliklərinin diaqnozu və müalicəsi", "Praktiki kardiologiya", "Psixotrop dərmanların kliniki farmakologiyası" və digər əsərlər professor Adil Baxşəliyevin gərgin alim və pedaqoq zəhmətinin layiqli bəhrələridir. Bu yaxınlarda isə görkəmli tədqiqatçının ingilis dilində "Clinical pharmacology" dərsliyi işıq üzü görüb.

O, öz elmi məktəbi olan alimdir, indiyə qədər 8 elmlər doktoru, 70-ə yaxın tibb üzrə fəlsəfə doktoru yetişdirib.

Kifayət qədər tələbkar elmi rəhbər və elm təşkilatçısıdır. Tibb elmi üçün yüksəkixtisaslı kadr hazırlığı məsələsində heç bir güzəşti sevmir. Yetirmələrinə son dərəcə tələbkar olduğu qədər də hörmət və qayğı ilə yanaşır. Buna görə də alimin rəhbərliyi altında müdafiə olunmuş dissertasiyalar elmi-nəzəri səviyyəsi və praktiki əhəmiyyəti ilə həmişə seçilir. Yetişdirdiyi alimlərdən başqa, o, neçə-neçə doktorluq dissertasiyasının elmi məsləhətçisi də olub.

## Ömrün 70-ci zirvəsi

Professor Adil Baxşəliyev Azərbaycanın sərhədlərindən kənarda da elmimizi layiqincə təmsil edir. Dünyanın bir çox nüfuzlu elmi mərkəzlərində ona böyük rəğbət bəsləyir, əsərlərindən, irəli sürdüyü elmi müddəalarından faydalanır, bacarıqlı elm təşkilatçısı kimi təcrübəsindən, yüksək potensialından bəhrələnirlər. Görkəmli Azərbaycan alimi Almaniyanın, Rusiyanın, Yaponiyanın, Kanadanın, Çexiyanın və bir çox başqa ölkələrin kardioloji cəmiyyətlərinin rəyasət heyətinin, Rusiyada nəşr olunan "Terapevt" və "Kardioloq" jurnallarının redaksiya heyətinin üzvüdür. Barselonada, Amsterdamda, Stokholmda, Moskvada, Antalyada, MDB ölkələrinin bir çox şəhərlərində keçirilən elmi konfranslarda, konqreslərdə, beynəlxalq simpoziumlarda maraqlı məruzələrlə çıxışlar edib. Həmin məruzələr nüfuzlu elmi jurnallarda çapdan çıxıb. Adil Baxşəliyevin 200-dən çox elmi əsəri ABŞ-da, Finlandiyada, İspaniyada, Çexiyada, Hollandiyada, İsveçdə, ayrı-ayrı MDB ölkələrində, Türkiyədə işıq üzü görüb.

Elə insanlar var ki, yaşlarının üzərinə yaş gəldikcə qərar tutduqları zirvədə daha da ucalırlar. Professor Adil Baxşəliyev də belələrindəndir. Görkəmli alim ömrünün 70-ci zirvəsini fəth edir. Bu zirvədən baxanda şərəflə, ləyaqətlə yaşanmış zəngin və mənalı bir həyat tarixi görünür. Qazanılmış elmi-pedaqoji nailiyyətlər də, başqalarına örnək olan həyat da, xilas edilmiş minlərlə insan ömrü də bu tarixin parlaq səhifələridir. Bu zirvədə qəlbi dünyaya və insanlara sevgi ilə dolu böyük bir ürək döyünür. Arzu edək ki, hələ uzun illər sonra da bu ürək döyünsün və başqa ürəklərin də döyüntüsünü qorusun. Ömrün yeni zirvələrinə doğru, doktor!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Vətən qəhrəmanlarını unutmur

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov rayonun Papravənd kəndindən məcburi köçkün kimi Sumqayıt şəhərində məskunlaşmış I qrup Vətən müharibəsi əlili Vidadi Əliyevlə görüşüb.



Görüş zamanı RİH başçısı Vidadi Əliyevin səhhəti və qayğıları ilə maraqlanıb. Vidadi Əliyev onu yaşayış evi və minik avtomobili ilə təmin etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirib, şəhid ailələrinin və qazilərin daim dövlətin diqqət mərkəzində saxlanılmasından, eləcə də doğma rayonu tərəfindən edilən maddi dəstəkdən razılığını və məmnunluğunu ifadə edib.

Qeyd edək ki, Vidadi Əliyev Prezidentin müvafiq sərəncamları ilə Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunmasına görə medalları ilə təltif edilmişdir.

***L.QULİYEV,***
***"Azərbaycan"***




# Bakıda "sauna", Budapeştdə "soyuq duş"



*Əvvəli 1-ci səh.*

"Qarabağ"ın start heyətində Şahruddin Məhəmmədəliyev, Qara Qarayev, Marko Veşoviç, Bədavi Hüseynov, Marko Yankoviç, Bəhlul Mustafazadə, Kadi Borges, Abdullah Zubir, Toral Bayramov, Ramil Şeydayev və İbrahima Vaci yer almışdılar.

"Ferentsvaroş"un heyətində isə meydana Deneş Dibus, Tokmak Nquyen, Anderson Esiti, Adnan Kovaçeviç, Kristofer Zakariasen, Eldar Çiviç, Adama Traore, Endre Botka, Rasmus Telander, Frank Boli və Aissa Ləyduni çıxmışdılar.

Qeyd edək ki, ilk qarşılaşmadan sonra rəqibin oyununu daha yaxşı təhlil etmiş "Qarabağ" cavab görüşündə macarların mərkəz müdafiəçilərinin ləngliyindən məharətlə yararlana bildi. Matçın ilk dəqiqələrindən əsasən Vaciyə və Şeydayevə uzaq məsafədən meydançanın dərinliyindən ötürülən toplar meydan sahiblərinin müdafiəçilərini çaş-baş salmışdı və onlar toparlanmaqda çətinlik çəkirdilər.

İspaniyalı baş hakim Karlos del Serro Qrandenin idarə etdiyi qarşılaşmada hesab artıq yeddinci dəqiqədə açıldı. "Qarabağ"ın heyətində Kadi Borgesin dəqiq ötürməsindən sonra Abdullah Zubir rəqib qapısının yaxın küncünə sərrast zərbə endirdi. Bundan əvvəl isə oyuna çox fəal başlayan və meydançanın hər bir zonasında güclü pressinq tətbiq edən ağdamlılar iki real qol imkanını boşa verdilər.

Hesab açıldıqdan sonra komandamız təzyiqi azaltdı. Meydanda bərabər mübarizə gedirdi. Hər iki komandanın qol vurmaq üçün şansları oldu, lakin qapıçıların nümayiş etdirdiyi ustalıq, bəzi hallarda isə hücumçuların qeyri-dəqiq zərbələri hesabın dəyişməsinə imkan vermədi. Matçın birinci hissəsi 1:0 hesabı ilə "Qarabağ"ın xeyrinə başa çatdı.

İkinci hissənin əvvəlində hücuma atılan macarlar cəmi 10 dəqiqədən sonra əks-həmlədə tutuldular və qapılarında ikinci qolu gördülər. Kadinin ötürməsindən sonra Vaci rəqibin qapısından ikinci topu keçirdi. Bu qol "Ferentsvaroş"u və onun çoxsaylı azarkeşlərini şok vəziyyətinə saldı. Bundan sonrakı 20 dəqiqə qarşılıqlı hücumlarla yadda qaldı. Rəqibin qapısına növbəti qolu görüşün 78-ci dəqiqəsində Ramil Şeydayevin ötürməsindən sonra dubl edən Vaci vurdu - 0:3. Artıq bu, tanınmış rusiyalı baş məşqçi Stanislav Çerçesovun və Macarıstan çempionunun fiaskosu idi. Bu, Bakıdakı görüşdən sonra "Oyun zamanı havanın temperaturu 30 dərəcədən yuxarı idi. Yüksək rütubəti də nəzərə alsaq, özümüzü saunada hiss edirdik" - deyən Çerçesov və onun komandası üçün "saunadan" sonra "soyuq duş" idi... Oyundan əvvəl əminliklə qələbə qazanacaqlarını söyləyən "Ferentsvaroş" rəhbərliyi və oyunçuları indi heç olmasa bir qol vurub darmadağından yaxa qurtarmağı düşünürdülər və onlar buna müyəssər oldular - 86-cı dəqiqədə Adama Traore hesab arasındakı fərqi azalda bildi...

Qeyd edək ki, Kadinin və Almeydanın qayıtması "Qarabağ"ın uğurunda böyük rol oynadı. Borges bu dəfə cinahda deyil, mərkəzdə yer almışdı və bunun sayəsində "Qarabağ" ın hücumları daha kreativ və təhlükəli idi. Ibrahima Vaci isə ən yaxşı oyunlarından birini keçirdi və iki vacib qola imza atdı. Ramil Şeydayev, Qara Qarayev, Bəhlul Mustafazadə və digər futbolçularımızın da əzmkarlığı və qələbədə payları qeyd olunmalıdır. Qapıçımız Şahruddin Məhəmmədəliyev də inamlı və etibarlı çıxışı ilə yadda qaldı.

Beləliklə, üçüncü təsnifat mərhələsinin ilk qarşılaşmasında Bakıda Macarıstanın çempionu ilə 1:1 hesablı heç-heçə edən ünlü mütəxəssis Qurban Qurbanovun yetirmələri Budapeştdə rəqibinə qalib gəldi və iki oyunun nəticəsinə görə növbəti mərhələyə yüksəldi. Bununla da "Qarabağ" növbəti zirvə yolunda möhtəşəm uğura imza atdı.

Xatırladaq ki, Azərbaycan futbolu tarixində ikinci dəfə komandamız Çempionlar Liqasının pley-off mərhələsində qüvvəsini sınayacaq. Eyni zamanda "Qarabağ" "Ferentsvaroş" üzərində qələbə sayəsində UEFA Avropa Liqasında qrup mərhələsinə vəsiqəni təmin edib.

Matçdan öncə "Ferentsvaroş"un cavab oyunlarında xüsusilə təhlükəli olduğunu əvvəlki görüşlərin statistikası da göstərirdi. Lakin "Qarabağ" əzmkar və ağıllı oyunu ilə rəqibin bütün planlarını və gözləntilərini alt-üst etməklə layiqli qələbə qazandı.

Matcın statistikasına nəzər salsaq görərik ki, ağdamlılar həm qapı istiqamtində (12-yə qarşı 11), həm də qapı çərçivəsinə (8-ə qarşı 5) daha çox zərbə endirib. Kadinin qayıtmasını "Qarabağ"ın uğurunda əsas element saymaq olar. O, iki vacib qola imza atıb. Qapıçımız Şahruddin Məhəmmədəliyev də inamlı və etibarlı çıxış etdi.

"Futbolçularımı təbrik edirəm. Komandamız bu gün qalib gəlmək istəyirdi. Çox əziyyət çəkdilər. Asan qələbə olmadı. Hesab tam əksinə də ola bilərdi. Çox yaxşı komandaya qarşı oynadıq. Onların da qol imkanları oldu. Rəqibə uğurlar arzulayıram". Bunu Ağdamın "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov matçdan sonra təşkil olunan mətbuat konfransında deyib. O bildirib ki, UEFA Avropa Liqasının qrupunu təmin etdiyimiz üçün rahatlaşmaq olmaz. Həmişə belə qələbələr olmur. Çünki klubların səviyyələri fərqlidir. Əlimizdəki şansdan maksimum yararlanmağa çalışmalıyıq.

Q.Qurbanov rəqib komandanın baş məşqçisi Stanislav Çerçesov barədə də xoş sözlər deyib: "Ona böyük hörmətim var. Çox bacarıqlı mütəxəssisdir. Onun futbolçu və məşqçi karyerası məndən daha üstündür. Ona taktiki planda qalib gəldiyimi deyə bilmərəm. S.Çerçesov çox yaxşı komanda formalaşdırıb. Bu gün futbolçularım hamısı qələbəyə layiq idilər. Çünki qələbəni çox istəyirdilər. Kadi Borges isə bu gün çox yaxşı oyun göstərdi və mübarizə apardı".

Öz növbəsində Stanislav Çerçesov "Qarabağ"a komanda şəklində uduzduqlarını etiraf edib: "Əslində, oyuna pis başladıq, pis də qurtardıq. Fikrimizcə, biz udmalı idik. Amma praktikada bunu bacarmadıq. Biz komanda şəklində uduzduq. Xüsusilə çox top itkilərinə yol verdiyimiz üçün məğlub olduq".

Rusiyalı mütəxəssisin dediyinə görə, özündən razı olmaq pis xüsusiyyət deyil: "Hətta deyərdim ki, belə oyunlar üçün yaxşıdır. Baş məşqçiyəm, bütün məsuliyyət mənə aiddir. Daha sonra sakit başla səhvləri harada buraxdığımızı analiz edəcəyik". Baş məşqçi "Qarabağ"ın çox güclü komanda olduğunu vurğulayıb: "Hücumda əla oynadılar. Məğlubiyyəti daha çox bununla əlaqələndirərdim. Rəqib qələbəyə layiq idi. Biz də yaxşı komandayıq. Sadəcə, alınmadı... Hamınız bizi sorğu-sual edirsiniz. Bu, sizin işinizdir. Bizim işimiz isə səhvlərdən nəticə çıxarmaqdır".

İndi "Qarabağ" Çempionlar Liqasının qrup mərhələsində yer almaq üçün Çexiya çempionu "Viktoriya"(Plzen) komandası qismində son maneəni dəf etməlidir. İlk görüş avqustun 17-də saat 20:45-də Bakıda, cavab qarşılaşması isə avqustun 23-də saat 23:00-da Plzendə start götürəcək.

Böyük zəfərlə Bakıya dönən "Qarabağ"ın qarşılanma mərasimində baş məşqçi Qurban Qurbanov bildirib ki, komanda Çempionlar Liqasının pley-off mərhələsində Çexiyanın "Viktoriya" (Plzen) komandası ilə oyunlara böyük ümidlərlə hazırlaşacaq: "Bilirik ki, bu rəqibi də üstələsək, Çempionlar Liqasının qrup mərhələsinə düşəcəyik. Daha yaxşı, daha istəkli olmalı və daha da səhvsiz oynamağa çalışmalıyıq. Rəqibi tam təhlil edəndən sonra daha ətraflı fikir bildirmək olar. Hər halda bu komanda Çempionlar Liqasının pley-offuna elə-belə gəlməyib. Ümumiyyətlə, Çexiya futbolçuları çox intizamlıdırlar. Çox yaxşı müdafiə xətləri olur, standart vəziyyətlərdə xeyli təhlükəli olurlar. Tam təhlil etdikdən sonra rəqibə qarşı yaxşı oyun qurmaq və uğurlu nəticə əldə etmək üçün ən yaxşısını ortaya qoyacağımıza inanıram".

Qurban Qurbanov ilk görüşü Bakıda keçirmələrini komandası üçün üstünlük hesab edir. Baş məşqçi inanır ki, komandamızın ilk oyununda üstünlük "Qarabağ"da olacaq.

Biz də inanırıq, azarkeşlər də... Uğurlar, "Qarabağ"!

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva güləşçilərimizin çıxışlarına baxıb



Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında güləş yarışları davam edir.

AZƏRTAC xəbər verir ki, Konya Texniki Universitetinin idman salonunda təşkil olunan yarışların medal uğrunda görüşlərini Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Fərid Qayıbov və MOK-un baş katibi Azər Əliyev izləyiblər.




Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunları 2021-ci ildə keçirilməli olsa da, qlobal pandemiya səbəbindən yarış bir il təxirə salınıb. Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır.

Oyunların məhz Konyada keçirilməsi təsadüfi deyil. Qədim tarixi olan Konya şəhəri həm də İslam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir.

Xatırladaq ki, 2017-ci il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident və Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün dünyaya nümayiş etdirdi ki, İslam aləmi bir ola bilir və bu birlik gücümüzü daha da artırır. "Bakı-2017"də 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə aparıb. Bu oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı.

İslam Həmrəyliyi Oyunları ilk dəfə Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilib. İranın paytaxtı Tehranda keçirilməli olan ikinci İslamiada ləğv edilib. Üçüncü oyunlar 2013-cü ildə İndoneziyanın Palembanq şəhərində təşkil olunub. VI İslam Həmrəyliyi Oyunları isə 2025-ci ildə Kamerunun paytaxtı Yaundedə keçiriləcək.

# Taekvondoçulardan daha 3 medal: qızıl, gümüş, bürünc





Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarında növbəti medallarını qazanıblar. Taekvondoçumuz Patimat Abakarova (49 kq) rəqibi - Nigeriya təmsilçisi Farida Saumanı məğlub etməklə yarımfinala vəsiqə qazanıb. Bununla da o, minimum bürünc medalı özü üçün təmin edib. Dünən axşam yarımfinal və final döyüşləri keçirilib. Patimat Abakarova yarımfinalda məğlub olub və bürünc medala yiyələnib.

Digər taekvondoçumuz Fəridə Əzizova da uğurla çıxış edərək yarımfinala yüksəlib. Komandamızın üzvü (67 kq) yarımfinala vəsiqə uğrunda qarşılaşmada qazaxıstanlı Feruza Yergeşovaya qalib gəlib. Bununla da o, özünə minimum bürünc medal təmin edib.

Son məlumata görə, Azərbaycanın qadın taekvondoçusu Fəridə Əzizova Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında finala yüksəlib. İdmançımız yarımfinalda mərakeşli Safi Salihə qalib gəlib. Bu isə o deməkdir ki, Əzizova ən azı gümüş medalı özü üçün təmin edib.

Final qarşılaşmasında seneqallı rəqibini məğlub edən Fəridə İslamiadanın qalibi olub. Daha bir taekvondoçumuz Cavad Ağayev (68 kq) isə qazaxıstanlı rəqibi Eldar Birimbaya qalib gələrək yarımfinala yüksəlib. Bununla da ən azı bürünc medalı təmin edib. Konyadan aldığımız xəbərə görə, Cavad Ağayev də yarımfinalda Seneqal təmsilçisini məğlub edərək finala adlayıb. Həlledici döyüşdə Özbəkistan təmsilçisinə uduzan Cavad İslamiadanı gümüş medalla başa vurub.




# Güləşçilərimiz ümidləri doğrultdular

## Onlar günü 6 medalla başa vurublar

Azərbaycan güləşi daim özünün tarixi ənənəsini qoruyub saxlayıb. Pəhləvanlarımız güləşin bütün növlərində Avropa, dünya birinciliklərində, Olimpiya oyunlarında və digər beynəlxalq yarışlarda çıxış edib, öz ustalıqları ilə idman həvəskarlarının rəğbətini qazanıblar.












Dünyanın ən möhtəşəm idman tədbiri olan Olimpiya oyunlarında əldə etdiyimiz qələbələrin əksəriyyəti məhz güləş növünün payına düşür. Şübhəsiz, qələbəni labüd edən ən başlıca amil idmançıların onlara göstərilən yüksək qayğı və etimad müqabilində dövlət və xalq qarşısında məsuliyyətini dərk etməsi, yüksək iradə göstərərək sonadək mübarizə aparmasıdır.

Sevindirici haldır ki, pəhləvanlarımız da qazandıqları nəticələrlə xalqımızın etimadını doğrultmaqda davam edirlər. Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında növbəti dəfə bunun şahidi oluruq.

Üçqat Avropa və üçqat dünya çempionu olan sərbəst güləşçimiz Hacı Əliyev oyunlara qələbə ilə başlayıb. 65 kq çəki dərəcəsində çıxış edən güləşçimiz ilk görüşündə İran idmançısı Morteza Həsənəli ilə qarşılaşıb. Hesabda geridə olmasına baxmayaraq, əzmkarlıq nümayiş etdirən H.Əliyev (8:4) inamlı qələbə qazanaraq yarımfinala yüksəlib. Qarşılaşmanın baş hakimi iki epizodda Əliyevin tətbiq etdiyi fəndləri hesaba almayıb. Üstəlik, iki güləşçi arasında gərginlik yaşanıb. İdmançı və yığmanın məşqçisi Zəlimxan Hüseynovun etirazlarına baxmayaraq, qərar dəyişməyib. Haqsızlıqlara rəğmən, titullu pəhləvan hesabda dönüş edə bilib və yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə rəqib özbəkistanlı Umidjon Jalolov olub. Yarımfinalda 4:0 hesabı ilə qalib gələn Hacı finala yüksəlib. Qızıl medal uğrunda güləşdə isə idmançımız Albaniya təmsilçisi Zəlimxan Abakarovla üz-üzə gəlib. Rəqibini vaxtından əvvəl "tuşe" ilə məğlub edən Hacı ardıcıl 2-ci dəfə İslamiadanın qalibi olub. O, daha əvvəl 2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında qızıl medala sahiblənmişdi.

Digər sərbəst güləşçimiz Turan Bayramov da finala vəsiqə qazanıb. 74 kq çəki dərəcəsində yarışan güləşçimiz yarımfinalda əlcəzairli Abdelkader İkkala 11:0 hesabı ilə qalib gələrək finala yüksəlib. Pəhləvanımız həlledici mərhələdə də qələbə qazanaraq V İslam Həmrəyliyi Oyunlarında qızıl medala layiq görülüb.

Turan finalda iranlı Firuzpur Məhəmmədsadıq ilə qarşılaşıb və rəqibini 2:1 hesabı ilə məğlub edib.

Daha bir güləşçimiz Abubakr Abakarov da İslamiadaya qələbə ilə başlayıb. 86 kq çəkidə mübarizə aparan Abakarov yarımfinalda türkiyəli Osman Göçeni 7:6 hesabı ilə məğlub edib. Təmsilçimizin finalda rəqibi iranlı Əlirza Kərimi olub. Görüş Kəriminin qələbəsi ilə yekunlaşıb. Abakarov gümüş medalla kifayətlənməli olub.






Bu arada Azərbaycan güləşçisi Əliabbas Rzazadə (57 kq) V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb. Konya Texniki Universitetinin idman salonunda təşkil olunan yarışda üçüncü yer uğrunda görüşdə sərbəst güləşçimiz Tacikistan idmançısı Hikmotullo Vohidova 8:7 hesabı ilə qalib gəlib.

Konyada zəfər estafetini qadın güləşçilərimiz davam etdiriblər. Ümumiyyətlə, son illərdə ölkəmizdə populyarlıq qazanan qadın güləşinə də xüsusi maraq göstərilir. Diqqəti artıran ən vacib amil isə təbii ki, qazanılan nailiyyətlərdir. Ölkəmizin hesabına qadın güləşi üzrə Avropa çempionatlarında ilk qızıl medalı 2008-ci ildə Finlandiyada keçirilən Avropa çempionatında Mariya Stadnik yazdırıb. Mariya həmin il Pekin Olimpiadasında bürünc medala layiq görülüb.

Mariya Stadnik (50 kq) Türkiyənin Konya şəhərində keçirilən İslamiadaya da parlaq qələbə ilə başlayıb.Təmsilçimiz A qrupunda Qazaxıstan güləşçisi Svetlana Ankiçeva ilə qarşılaşıb. O, 33 saniyəyə rəqibindən xallar alaraq görüşü erkən qələbə ilə başa vurub. Titullu xanım pəhləvanımız 1/4 finalda türkiyəli Əminə Çataloğlunu məğlub edib. Mariya 1 dəqiqə 35 saniyəyə tam üstünlüklə qələbə qazanaraq yarımfinala yüksəlib. Bu mərhələdə tunisli Sarra Hamdi ilə qarşılaşan güləşçimiz rəqibini 39 saniyəyə 10:0 hesabı ilə məğlub edərək finala yüksəlib. Finalda Mariyanın rəqibi özbəkistanlı Jasmina İmmayeva olub. Görüş Stadnikin vaxtından əvvəl 10:0 hesablı təmiz qələbəsi ilə başa çatıb. Beləliklə, o, karyerasında ikinci dəfə İslamiadanın qalibi olub. Daha əvvəl Mariya, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanmışdı.

59 kq çəki dərəcəsində çıxış edən digər xanım güləşçimiz Alyona Kolesnik isə üç qələbə ilə İslamiadanı gümüş medalla başa vurub.

V İslam Həmrəyliyi Oyunlarının qadın güləşi yarışlarında 50 kiloqram çəki dərəcəsində qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Konya Texniki Universitetinin idman salonunda təşkil olunan yarışda mükafatları Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibi Azər Əliyev təqdim edib.

Bu çəki dərəcəsində yarışın qalibi Azərbaycan güləşçisi Mariya Stadnik olub. Özbəkistan idmançısı Jasmina İmmayeva yarışı ikinci, Tunis güləşçisi isə Sarra Hamdi isə üçüncü pillədə başa vurublar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Futbol millimiz İran üzərində texniki qələbə qazanıb

Türkiyənin Konya şəhərindəki V İslam Həmrəyliyi Oyunlarında iştirak edən 23 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası ilk qələbəsini qazanıb.

Buna yığmanın B qrupunda dünən qarşılaşmalı olduğu İran seçməsinin oyuna gəlməməsi səbəb olub. Qarşılaşma baş tutmayıb və rəqibə texniki məğlubiyyət verilib.

Xatırladaq ki, Azərbaycan millisi qrupdakı ilk matçında Səudiyyə Ərəbistanına 0:1 hesabı ilə uduzub. Samir Əliyevin baş məşqçisi olduğu yığma avqustun 12-də Mərakeşlə oynayacaq.

# Voleybolçulardan növbəti qalibiyyət



V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın qadın voleybolu üzrə milli komandası B qrupunda ikinci oyunda növbəti qələbə qazanıb.

Bu dəfə millimiz Əfqanıstan voleybolçuları üzərində çətinlik çəkmədən qələbə qazanıb - 3:0 (25:4; 25:11; 25:4). Azərbaycan daha əvvəl - avqustun 8-də Seneqaldan üstün olmuşdu - 3:0 (25:7; 25:6; 25:10). Qeyd edək ki, Azərbaycanın voleybol millisi sabah B qrupunda sonuncu oyununu Kameruna qarşı keçirəcək.

# Azərbaycanın stolüstü tennis yığması Uqandanı uddu, Türkiyəyə uduzdu

**Kişi stolüstü tennisçilərdən ibarət Azərbaycan milli komandası Türkiyənin Konya şəhərində keçirilən V Islam Həmrəyliyi Oyunlarında növbəti qələbəsini qazanıb.**

Qrup mərhələsinin II turunda Uqanda seçməsi ilə qarşılaşan yığma rəqibini 3:0 hesabı ilə məğlub edib. Tennisçilərimiz son turda Türkiyə komandası ilə görüşüb və 0:3 hesabı ilə uduzub. Qeyd edək ki, qrup mərhələsinin ilk tur oyununda Mavritaniya yığması iştirak etmədiyi üçün Azərbaycana texniki qələbə verilib.

# Azərbaycan gimnastı gümüş medala sahib olub

**Azərbaycanın idman gimnastı İvan Tixonov Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında gümüş medal qazanıb. 26 yaşlı idmançı çoxnövçülükdə fəxri kürsünün ikinci pilləsinə qalxıb.**

Komanda yarışlarında isə millimiz İslamiadanı dördüncü pillədə başa vurub.

Yarışlarda ölkəmizi Nikita Simonov, İvan Tixonov və Mənsum Səfərov təmsil edirdilər.



# Azercell abunəçilərinin nəzərinə!

11.09.2022-ci il tarixdən etibarən "Bookmate", "Busuu" və "Azercell Kids" tətbiqləri çərçivəsində təqdim edilən xidmətlərə aşağıdakı tariflər tətbiq ediləcək:

| Xidmətlər | Qiymət |
|---|---|
| "Bookmate Günlük+" | 0,23 |
| "Bookmate Aylıq+" | 3,99 |
| "Busuu Günlük" | 0,25 |
| "Busuu Aylıq" | 3,50 |
| "Azercell Kids Günlük" | 0,40 |
| "Azercell Kids Aylıq" | 5,99 |

**Qeydlər:**

* Bütün qiymətlər ƏDV daxil göstərilib.

* Abunəçilər göstərilən dəyişikliklər, müvafiq tarif paketləri və mövcud tarif paketlərinin dəyişdirilməsi şərtləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com<http://www.azercell.com/>), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


*Təkrar*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

**LOT - 1. Bakı şəhəri ərazisində yerləşən parklarda abadlıq işlərinin həyata keçirilməsinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki,öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 120 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 12:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 12:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

**LOT - 1. Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 120 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 11:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

**LOT - 1. Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasının əsaslı təmir-bərpa işlərinin davam etdirilməsinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Həmçinin tenderdə iştirak etmək istəyən iddiaçıların Azərbaycan milli memarlıq ornamentləri ilə işləmə təcrübəsi, tarixi abidələrin bərpası işlərinin görülməsində təcrübəsi, o cümlədən fasad və daxili tərtibat işlərinin görülməsində təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu elektron satınalmalar üzrə vahid internet Portalından əldə edə bilərlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 1000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 45 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 75 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya;*
- *iddiaçının tender predmentinin icrası üçün texniki və kadr imkanları barəsində məlumat (inzibati sahəsi, işçi heyət, nəqliyyat vasitələri və digər avadanlıqlar);*
- *analoji işlərə dair müqavilələrin surəti;*
- *bərpa işlərində təcrübəsi olan azı 12 nəfər ixtisaslı kadrların (rəssam xəttat və digər işlər üzrə) olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 14:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 14:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Toxucu" QSC səhmdarlarının nəzərinə!

24 sentyabr 2022-ci il saat 12:00-da "Bakı Toxucu" QSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Bakı Toxucu" QSC-nin illik hesabatı.
2. "Bakı Toxucu" QSC-nin İdarə Heyəti sədrinin seçilməsi.
3. "Bakı Toxucu" QSC-nin İdarə Heyətinin üzvlərinin seçilməsi və digər təşkilati məsələlər.
4. Səhmlərin alqı-satqısı.

**Ünvan: Bakı şəhəri, Bülbülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi 47.**
**Telefon: (012)458-14-21**

***İdarə Heyəti***

"Bakı Dəmir-Beton8" Açıq Səhmdar Cəmiyyəti

Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə

(Azərbaycan manatı ilə)

| | Qeydlər | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 5 | 323269 | 63148 |
| Satışın maya dəyəri | 6 | (705436) | (569415) |
| **Ümumi mənfəət** | | **(382167)** | **(506267)** |
| Sair əməliyyat gəlirləri | 5 | 425726 | 544988 |
| Kommersiya xərcləri | 6 | - | - |
| İnzibati xərclər | 6 | ( 7967) | (11296) |
| Sair əməliyyat xərcləri | 6 | (34733) | (27920) |
| **Əməliyyat mənfəəti(zərəri)** | | **859** | **(495)** |
| Maliyyə gəliri | | - | - |
| Maliyyə xərcləri | 6 | - | - |
| **Vergiqoymadan əvvəl mənfəət(zərər)** | | **859** | **(495)** |
| Mənfəət vergisi xərcləri | | 172 | _ |
| Cari vergi xərci | 7 | - | _ |
| Təxirə salınmış vergi (gəliri) | 7 | _ | - |
| **Hesabat dövrünün xalis mənfəəti(zərəri)** | | **687** | **(495)** |

«BAKI DƏMİR BETON-8» Açıq Səhmdar Cəmiyyəti Ləğv prosesindədir

Rəhbər: Nağıyev Ənvər Həsən o.

Baş mühasib: Həsənova Rəfiqə Həsən q.

# Avqustun 15-dək ölkə ərazisində hava şəraiti mülayim, əsasən yağmursuz keçəcək



Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, avqustun 10-u gündüzdən avqustun 15-dək ölkə ərazisində hava şəraiti mülayim, əsasən yağmursuz keçəcək.

Xidmətdən AZƏRTAC-a bildirilib ki, şərq küləyinin əsəcəyi, bəzi rayonlarda saniyədə 15-18, ayrı-ayrı şərq rayonlarında isə arabir 20 metrədək güclənəcəyi gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin əməkdaşı Ramil Baxşəliyevə atası

**HİKMƏT BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# "Artilleriya atəşinin ustaları" müsabiqəsində silah və hərbi texnikaya baxış keçirilib

"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Qazaxıstanda keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsində istifadə ediləcək silah və texnikaya baxış keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ölkəmizi müsabiqədə təmsil edəcək artilleriyaçılarımız silah və döyüş texnikasını qəbul edərək müsabiqənin mərhələlərinin keçirilməsi üsullarının məşqinə başlayıblar.



Həmçinin hakimlər heyətinin üzvləri təlim sahəsi ilə tanış olublar. Qeyd edək ki, "Artilleriya atəşinin ustaları" müsabiqəsi avqustun 24-dək davam edəcək.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6229
Sifariş 2213
Qiyməti 40 qəpik